YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Həftəlik qəzet 10-16 iyun 2026-cı il Çərşənbə № 22 (8871) Qiymət 1 manat

**Xəbər**

## Azərbaycanlılar üçün ucuz Türkiyə istirahəti bitdi

yazısı səh.10-da

# PUTİNİN ANONS ETDİYİ O GÖRÜŞ - MOSKVANIN STRATEJİ HƏDƏFİ

Rusiya prezidentinin forumda Azərbaycanın adını xüsusi vurğulaması qlobal diplomatik kulislərdə əks-səda doğurub; bu il liderlər bir araya gələ bilər - Kremlin gözləntisi

yazısı səh.5-də



## Sülh sazişinə "ev sahibliyi" uğrunda rəqabət qızışır

Bakı ilə İrəvanın yekun imzanı harada atacağı indi böyük güclər arasında nüfuz mübarizəsinin mühüm epizoduna çevrilməkdədir; Moskva yenidən fəallaşır

yazısı səh.4-də

**Ölkə**

### "3+3" formatını yenə "diriltmək cəhdi"




Moskva nə üçün mövzunu gündəmdə saxlamaqda təkid edir?

yazısı səh.11-də

### TikTok qadağası nəyi dəyişəcək?

yazısı səh.3-də

### Rusiya revanşistlərin məğlubiyyətini tanıyacaqmı?

yazısı səh.5-də

### Dövlət borcumuz azalıb, valyuta ehtiyatlarımız artıb

yazısı səh.3-də

### İcra başçısını öldürmək istəyənlərlə bağlı qərar

yazısı səh.2-də

### "Üçbaşlı müxalifət" Ermənistana qarşı

yazısı səh.6-da

### Bakı Qərbi Avropada diplomatik mövqeyini gücləndirir

yazısı səh.8-də

### Xaricdə döyüşən azərbaycanlılara xəbərdarlıq

yazısı səh.6-da

### Yeni tikililərdə evlər sürətlə bahalaşır - səbəb

yazısı səh.13-də

### Azərbaycan dövlət idarəçiliyində dünya üçlüyündə

yazısı səh.12-də

### Qış bitdi, dəm qazı "qətliamı" bitmədi

yazısı səh.13-də

### Ölkəmizdə psixi xəstələrin sayı sürətlə artır

yazısı səh.2-də



Nikol Paşinyan

### Ermənistanı zəncirdən xilas etmək istəyən erməni

yazısı səh.7-də



Ramil Məmmədli

### Alternativ hərbi xidmət - dövlət nə itirər, nə qazanar?

yazısı səh.10-da



### Aşqabad türk birliyinə və Orta dəhlizə qarşı?

yazısı səh.12-də




## Ermənilər Başkənddən niyə əl çəkmir?

**Baş nazir Nikol Paşinyan parlament seçkiləri ərəfəsində göstərdiyi xəritədə "Artsvaşen" adlandırdığı Başkənddən əl çəkmədiklərini nümayiş etdirib. Paşinyan seçkiqabağı təşviqat kampaniyasında da Başkəndin yaddan çıxarılmadığını və mübadilə oluna biləcəyini söyləmişdi.**

Ermənistan KİV-in yaydığı məlumatlarda iddia edilir ki, İrəvan delimitasiya prosesi çərçivəsində Başkəndi Kərki kəndi ilə dəyişə bilər. Söhbət Naxçıvan MR Sədərək rayonunun işğal altındakı Kərki kəndindən gedir. Erməni tərəfi iddia edir ki, razılaşma ilə Kərki Ermənistanda qalır, Başkənd Azərbaycanda.

Qeyd edək ki, ermənilərin "Artsvaşen" adlandırdığı tarixi Azərbaycan torpağı olan Başkənd yaşayış məntəqəsi sovetlər dövründə - 1920-ci ildə Ermənistana verilib və onun xəritəsinə daxil edilib. Ərazisi 40 kv.km olan Başkənd 1992-ci ilə qədər Azərbaycanın Gədəbəy rayonunun içərisinə doğru erməni ekslavı kimi qalırdı. Ermənistan hökuməti qəsəbənin adını 1978-ci ildə "Artsvaşen" olaraq dəyişdirmişdi. Başkənd 1992-ci ilin avqustunda erməni işğalçılarından təmizlənib.

Xatırladaq ki, hazırda Azərbaycanın işğalda 4 kənd qalır: Qazağın Yuxarı Əskipara, Barxudarlı, Sofulu və Naxçıvan MR Sədərək rayonunun Kərki kəndi. Onlar hər tərəfdən Ermənistan ərazisi ilə əhatə olunub.

Bu kəndlər Azərbaycan üçün eksklav, Ermənistan üçün anklav kəndlərdir.

Yuxarı Əskipara 860 hektar, Sofulu 439 hektar, Barxudarlı 320 hektar əraziyə malikdir. Hər üç yaşayış məntəqəsi 1992-ci ildə işğal olunub.

Kərki kəndi 1990-cı ilin yanvarında ermənilər tərəfindən işğal edilib. Kəndin ərazisi 19 kv.km-dir.

Xatırladaq ki, Azərbaycan hökumətli dəfələrlə bəyan edib ki, eksklav kəndlərin qaytarılması məsələsi milli maraqlara uyğun şəkildə həll olunacaq.

## Bu il Azərbaycanda neçə uşaq övladlığa verilib?



**Sosial Xidmətlər Agentliyi tərəfindən 2026-cı ilin ötən dövründə 70 uşaq övladlığa verilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, onlardan 34-ü qız, 36-sı oğlandır.

"Uşaqların övladlığa verildiyi ailələrdə vəziyyətinin öyrənilməsi üçün onlar 18 yaşına çatanadək övladlığagötürmənin birinci ilində hər rüb, növbəti illərdə isə ildə bir dəfə olmaqla monitorinqlər aparılır.

Onu da qeyd edək ki, valideyn himayəsindən məhrum olmuş uşaqları övladlığa götürən şəxslər aylıq sosial müavinətlə (3-18 yaş arası hər uşağa görə 240 manat, əlilliyi olan hər uşağa görə 600 manat) təmin edilir.

Həmçinin onlar sosial təminat, əmək, vergi münasibətləri sahələrində bir sıra güzəştlərə də malikdirlər", - məlumatda deyilir.

## Azərbaycan nərə balığını Türkmənistana 1,3 manata satır



**Bu ilin ilk 3 ayında Azərbaycan xarici ölkələrə ümumi dəyəri 1 milyon 795 min dollar olan 1 min 694,8 ton dondurulmuş nərə balığı ixrac edib.**

Yeniavaz.com açıqlanan rəsmi məlumatlara istinadən xəbər verir ki, ixrac olunan dondurulmuş nərə balığının 1 kiloqramının orta gömrük dəyəri 1,06 dollar (1,8 manat) olub.

Qeyd edək ki, Azərbaycan bu məhsulu 3 ölkəyə ixrac edib.

İxrac olunan məhsulun miqdarı və 1 kiloqramının orta gömrük dəyəri belə olub:

Qazaxıstan - 178,2 ton (0,93 dollar/kq);
Rusiya - 1 473,8 ton (1,08 dollar/kq);
Türkmənistan - 42,8 ton (0,75 dollar/kq).

# İcra başçısını öldürmək istəyənlərlə bağlı qərar




**Lənkəran İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova sui-qəsd hazırlamaqda ittiham olunan Bəhruz Əskərovun barəsində olan hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib.**

APA xəbər verir ki, Bakı Apelyasiya Məhkəməsində qərar qəbul edilib.

Qərara əsasən, şikayət təmin edilməyib, aşağı instansiya məhkəməsinin hökmü qüvvədə saxlanılıb. Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmünə əsasən, təqsirləndirilən Bəhruz Əskərov 15 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilib.

Xatırladaq ki, Bəhruz Əskərova qarşı Cinayət Məcəlləsinin 28,120.2.1, 28,120.2.10, 28,120.2.11, 28,120.2.12 (qabaqcadan əlbir olan bir qrup şəxs halında milli, irqi, dini ədavət və düşmənçilik zəminində təkrar adam öldürməyə hazırlıq), 28,214.2.1, 28,214.2.3 (odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə terror aktı törətməyə hazırlıq), 28,214-3.1 (terrorçuluqla əlaqədar təlim keçməyə hazırlıq), 28,277 (dövlət xadiminin həyatına sui-qəsd etməyə hazırlıq) və 28,278.1-ci (dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hazırlıq hərəkətləri) maddələri ilə ittiham irəli sürülüb.

Bəhruz Əskərovun respublikanın müxtəlif rayonlarında yaşayan şəxsləri gizli ələqəyə cəlb edərək, onlara Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının həyatına sui-qəsdin təşkil olunması barədə tapşırıqlar verməsi və əlaqəsində olan şəxslərə Azərbaycanın bəzi rayonlarında fərdi qaydada ingilis dili müəllimi kimi fəaliyyət göstərən xarici ölkə vətəndaşına qarşı sui-qəsd həyata keçirməyi tapşırması təsbit edilib.

Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən keçirilmiş kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində Bəhruz Əskərovun tutularaq Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb edilməsi təmin olunub.

## DÇ-2026-nın açılış oyununu o idarə edəcək




**DÇ-2026-nın açılış oyununu idarə edəcək hakimlər briqadası açıqlanıb.**

A qrupunda Meksika və CAR milliləri arasında keçiriləcək açılış qarşılaşmasını braziliyalı hakim Vilton Sampaio idarə edəcək. Ona Bruno Pires və Bruno Boşilya kömək edəcəklər. VAR hakimi funksiyasını isə kolumbiyalı Nikolas Qallo yerinə yetirəcək. Qarşılaşma iyunun 11-də Mexikoda keçiriləcək və Bakı vaxtı ilə saat 23:00-da start götürəcək.

Xatırladaq ki, DÇ-2026 mundiallar tarixində ilk dəfə 48 komandanın iştirakı ilə keçiriləcək. FİFA turnirin oyunlarına 52 baş hakim, 88 köməkçi hakim və 30 VAR hakimi təyin edib.

## Ölkəmizdə psixi xəstələrin sayı sürətlə artır



**2025-ci ildə psixoaktiv maddələrin qəbulu ilə bağlı olan pozuntular istisna olmaqla, psixi və davranış pozuntuları diaqnozu ilk dəfə qoyulmuş 6 063 nəfər qeydiyyata alınıb. Bu barədə Modern.az-ın sorğusuna cavab olaraq Dövlət Statistika Komitəsindən məlumat verilib. Məlumata görə, onlardan 4 499-u kişi, 1 564-ü isə qadındır. Yaş qrupları üzrə ilk dəfə diaqnoz qoyulan şəxslərin 2 466-sı 0-17 yaş, 1 591-i 18-29 yaş, 698-i 30-39 yaş, 1 308-i isə 40 və yuxarı yaş qrupuna aid olub.**

Komitədən verilən məlumata əsasən, 2025-ci ildə tibb müəssisələrində qeydiyyatda olan psixi və davranış pozuntulu xəstələrin ümumi sayı 111 560 nəfər təşkil edib. Bundan əlavə, qeydiyyatda olan xəstələrin 79 968-i kişi, 31 592-si qadın olub.

Yaş bölgüsünə görə, qeydiyyatda olan xəstələrin 13 867-si 0-17 yaş, 29 723-ü 18-29 yaş, 22 851-i 30-39 yaş, 45 119-u isə 40 və yuxarı yaş qrupunda qeydə alınıb.

## Seçkilərin yekun nəticələri bu tarixdə açıqlanacaq



**İyunun 7-də Ermənistanda keçirilmiş parlament seçkilərinin yekun nəticələrinin açıqlanacağı tarix məlum olub.**

Bu barədə ölkənin Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Vaaqn Ovakimyan bəyanat verib.

MSK sədri bildirib ki, səsvermənin yekun nəticələri iyunun 14-də elan olunacaq: "O vaxta qədər rəsmi olaraq səslərin yenidən sayılması prosesi aparılacaq. Burada müəyyən düzəliş mərhələləri olacaq, daxil olan şikayət və ərizələr qiymətləndiriləcək. Bütün bu prosedurlardan sonra, iyunun 14-də yekun nəticələr ictimaiyyətə açıqlanacaq".

## Ərdoğan erməni din xadimi ilə görüşdü



**İstanbul Erməni Patriarxlığının rəhbəri Sahak Maşalyan GTürkiyə prezidenti Rəcəb Tayyip Ərdoğanla görüşüb. Görüş zamanı Türkiyədəki erməni icmasını maraqlandıran məsələlər müzakirə olunub.**

Tərəflər həmçinin İskəndərunda yerləşən "Qırx körpə" kilsəsi və Diyarbəkirdəki "Sarkis" kilsəsinin bərpası üzrə görülən işlər barədə fikir mübadiləsi aparıblar.

Arxiyepiskop Sahak Maşalyan erməni icması adından Türkiyə prezidentinə göstərdiyi diqqətə görə təşəkkür edib, ona cansağlığı və fəaliyyətində uğurlar arzulayıb.

## Eynulla Fətullayevin saytına yeni rəhbər təyin olunub



**Haqqın.az saytına yeni rəhbər təyin edildiyi bildirilir.**

Bu barədə "Manşet" məlumat yayıb.

Bildirilir ki, bu vəzifəyə Caliber.az saytının baş redaktoru Teymur Hüseynov gətirilib. "O, "Caliber"in kollektivi ilə vidalaşıb. Yeni rəhbər kollektivə təqdim edilərək fəaliyyətə başlayıb", - sayt yazır.

Qeyd edək ki, bir müddət əvvəl Eynulla Fətullayevin Haqqın.az saytını satdığı və Azərbaycandan getdiyi ilə bağlı məlumatlar yayılmışdı.

YENİ MÜSAVAT
N 22 (8871) 10 iyun 2026

# TikTok qadağası nəyi dəyişəcək?

## Psixoloqdan SOS: "Qadağalar artıq gecikmiş bir mərhələdə nəticə vermir, ona görə..."



**"Psixi pozuntuları olan uşaq və yeniyetmələr sosial şəbəkələrdə sağlam həmyaşıdlarından orta hesabla gündə əlli dəqiqə daha çox vaxt keçirirlər". Bunu elm və təhsil nazirinin müavini Firudin Qurbanov deyib. Nazir müavini bildirib ki, nazirlik olaraq məktəblərdə bəzi məhdudiyyətlər qoymağa başlanılıb:**

"Hazırda məktəblərdə TikTok-a çıxış bloklanır. Məktəbdə uşaqların "Linkedn"ə çıxışı, ümumiyyətlə, filter olunur. Elə mövzular var ki, onlar bloklanır. Məsəl üçün, terrorizmlə bağlı, pornoqrafiya ilə bağlı, narkomaniya ilə bağlı və ümumiyyətlə, iki yüz mövzudan çox təhlükəli olan mövzulara məhdudiyyətlər qoyulub məktəblərdə" - o bildirib.

**İnsan hüquqları komitəsinin sədri Zahid Oruc isə deyib ki, ölkəmizdə 12-15 yaş qrupundakı uşaqların 42 faizi gecə saat 23:00-dan 02:00-a qədər olan vaxtı telefonda keçirir:** "Gecə sosial media aktivliyi həm yuxu çatışmazlığına, həm də dərs uğursuzluğuna birbaşa təsir göstərir. Respublika Uşaq Klinikasının statistikasına görə, 2022-2025-ci illər arasında ekran vaxtı ilə bağlı psixoloji müraciətlər 4,7 dəfə artıb. Rəqəmlər yalnız böyük şəhərlərdə deyil, rayon mərkəzlərinin tibb müəssisələrini də əhatə edir".

Bu məhdudiyyətlər müsbət təsir göstərəcəkmi? Valideynlər də uşaqlara TikTok qadağası qoymalıdırmı?

**Tanınmış psixoloq Ülviyyə Murtuzova** mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb: "Əvvəla onu deyim ki, psixoloji pozuntusu olan uşaqların və yeniyetmələrin sağlam uşaqlardan daha çox sosial şəbəkələrdə vaxt keçirməsi fikri ilə razı deyiləm. Niyə razı deyiləm? Birincisi, sosial şəbəkədə oyun asılılığı anlayışı var. Buraya sosial media üzərindən yaranan qumar asılılıqları da daxildir. Bilirik ki, asılılıqlar psixoloji pozuntu hesab olunur. Maddə asılılığı, alkoqol asılılığı, qumar asılılığı, oyun asılılığı və s. Bunlar necə yaranır? Sağlam insan mütəmadi olaraq bir fəaliyyətə vaxt ayırdıqda və ondan qopa bilmədikdə, bu artıq asılılığa çevrilir. Asılı olan insan isə artıq psixoloji problemin içindədir.

Ona görə də "psixoloji pozuntusu olan uşaqlar" və "sağlam uşaqlar" arasında kəskin sərhəd çəkmək düzgün deyil. Çünki asılılıq özü də psixoloji pozuntudur. Əqli, zəkası və təfəkkürü sağlam olan uşaqlar da zamanla bu problemə doğru gedə bilirlər. Buna görə bütün halları yalnız problemli uşaqlarla əlaqələndirmək olmaz".

**Psixoloq çıxış yollarından da danışıb:** "Məncə, məktəbdə məhdudiyyətlərin tətbiqi üçün artıq bir qədər gecikmişik. Bunlar daha əvvəl edilməli idi. O ki qaldı valideynlərin qadağalar qoymasına, düşünmürəm ki, bu, ciddi nəticə versin. Artıq qadağa yolu çox effektiv deyil. Daha çox uşaqların şüuruna təsir etmək, onları maarifləndirmək və boş vaxtlarını düzgün istiqamətləndirmək lazımdır.

Uşaqların asudə vaxtının boş qalmaması vacibdir. Həmin vaxtlarda onları faydalı və ciddi fəaliyyətlərə yönəltmək çıxış yolu ola bilər. Biz problemin kökünə varmadan, sadəcə zahiri qadağalar tətbiq etsək, bu, problemi həll etməyəcək. Əsas sual budur: bu uşağın sosial şəbəkədə bu qədər vaxt keçirməyə niyə imkanı var? Sual məhz buradan başlayır. Niyə onun asudə vaxtı elə təşkil olunmur ki, həm mənəvi, həm psixoloji, həm də fiziki baxımdan dolğun bir gün keçirsin? Adətən insan həm əqli, həm də fiziki yorğunluq hiss etdikdə gec saatlara qədər ayıq qala bilmir. Yorğunluq insanı istirahətə sövq edir. Amma burada söhbət gün ərzində heç bir məşğuliyyəti olmayan uşaqlardan gedir. Problem də məhz budur.

Uşaqların və yeniyetmələrin asudə vaxtının boş qalmasının qarşısını almaq, onları düzgün istiqamətləndirmək daha effektiv yoldur. Dərnəklər, idman, rəqs və digər fəaliyyətlər burada mühüm rol oynaya bilər. Valideynlər bu məsələyə diqqət ayırsa və məktəblər də onlara dəstək versə, düşünürəm ki, bu, daha yaxşı alternativ olar. Qadağalar artıq gecikmiş bir mərhələdə çox da nəticə vermir".

Yeri gəlmişkən, uşaqlar və yeniyetmələr arasında sosial şəbəkələrdən istifadənin sürətlə artması bir çox ölkələrdə narahatlıq doğurub. Xüsusilə TikTok-un qısa və sürətli videolar üzərində qurulan alqoritmlərinin uşaqların diqqətinə, psixoloji vəziyyətinə və sosial davranışlarına təsiri ilə bağlı müzakirələr genişlənib. Bu səbəbdən müxtəlif ölkələr uşaqların sosial şəbəkələrə çıxışını məhdudlaşdırmaq üçün yeni qaydalar tətbiq etməyə başlayıblar.

Bu sahədə ən sərt addımlardan birini Avstraliya atıb. Ölkədə qəbul edilən qanuna əsasən, 16 yaşdan kiçik uşaqların TikTok, Instagram, Facebook, Snapchat və digər sosial şəbəkələrdən istifadəsi qadağan edilir. Qanun sosial şəbəkə şirkətlərini istifadəçilərin yaşını yoxlamağa məcbur edir. Əgər platformalar yaş məhdudiyyətini tətbiq etməsələr, onları milyonlarla dollar cərimə gözləyir.

Oxşar tendensiya Avropada da müşahidə olunur. Fransada 15 yaşdan aşağı uşaqların sosial şəbəkələrdən istifadəsinə məhdudiyyət qoyulub və valideyn razılığı olmadan hesab açmaq mümkün deyil. Norveç, Danimarka, İspaniya, Yunanıstan və digər ölkələrdə də yaş həddinin artırılması və uşaqların sosial şəbəkələrə çıxışının məhdudlaşdırılması ilə bağlı müzakirələr aparılır.

Çində isə fərqli yanaşma seçilib. Burada bir çox tətbiqlərdə "uşaq rejimi" tətbiq olunur. Bu rejim vasitəsilə azyaşlıların ekran qarşısında keçirdiyi vaxt məhdudlaşdırılır, gecə saatlarında tətbiqlərdən istifadə qadağan edilir və uşaqlara göstərilən məzmun xüsusi filtrlərdən keçirilir.

Bəs bu qadağalar praktikada necə işləyir? Əsas mexanizm istifadəçilərin yaşının yoxlanılmasıdır. Bir sıra ölkələrdə sosial şəbəkələrdən tələb olunur ki, istifadəçinin yaşı sadəcə qeydiyyat zamanı yazdığı doğum tarixi ilə deyil, əlavə vasitələrlə də təsdiqlənsin. Bunun üçün şəxsiyyət vəsiqəsi məlumatları, rəqəmsal identifikasiya sistemləri, bəzi hallarda isə süni intellekt əsaslı yaş təyini texnologiyalarından istifadə edilir.

Yaş həddinə uyğun gəlməyən istifadəçilərin hesabları bloklana və ya ümumiyyətlə yaradılmaya bilər. Bir çox ölkələr məsuliyyəti valideynlərin deyil, məhz sosial şəbəkə şirkətlərinin üzərinə qoyur. Məqsəd odur ki, platformalar uşaqların yaşını müəyyən etmək və onları qorumaq üçün daha ciddi tədbirlər görsünlər.

Bununla belə, mütəxəssislər hesab edirlər ki, qadağalar problemin yalnız bir hissəsini həll edir. Texniki məhdudiyyətlər müəyyən nəticə versə də, uşaqların müxtəlif yollarla bu qadağaları aşması mümkündür. Buna görə də bir çox ekspert valideyn nəzarətinin, rəqəmsal savadlılığın artırılmasının və uşaqların asudə vaxtının düzgün təşkil edilməsinin daha vacib olduğunu vurğulayır. Onların fikrincə, idman, yaradıcılıq, dərnəklər və digər fəaliyyətlərə cəlb olunan uşaqlarda sosial şəbəkələrdən asılılıq riski daha aşağı olur.

Yəni dünyanın müxtəlif ölkələri TikTok və digər sosial şəbəkələrin uşaqlara təsirini azaltmaq üçün fərqli üsullardan istifadə edirlər. Ancaq əksər mütəxəssislər bir məsələdə həmfikirdirlər: təkcə qadağalar kifayət deyil, uşaqların rəqəmsal mühitdə təhlükəsiz davranış vərdişləri qazanması da ən azı bunun qədər vacibdir.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**



## Dövlət borcumuz azalıb, valyuta ehtiyatlarımız artıb

### Maliyyə nazir hesabat verdi

**Azərbaycanda dövlət borcu azalaraq 2026-cı il iyunun 1-nə 24,1 milyard manata düşüb.**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iyunun 9-da keçirilən iclasında müzakirə olunan "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin müzakirəsi zamanı maliyyə naziri Sahil Babayev deyib. Nazir bildirib ki, 2026-cı il yanvarın 1-nə dövlət borcu 26 milyard manat və ya ÜDM-in 20,1 faizi səviyyəsində olub. Bu göstərici 2025-ci ilin əvvəli ilə müqayisədə 1,6 faiz bəndi azdır.

Sahil Babayev qeyd edib ki, dövlət borcunun həcmi azalmağa davam edib: "2026-cı il iyunun 1-nə dövlət borcu 24,1 milyard manata və ya ÜDM-in 18,4 faizinə bərabərdir. Bu göstərici Azərbaycanın dövlət borcunun ÜDM-ə nisbətinə görə dünyanın ən aşağı göstəriciyə malik ölkələrindən biri olduğunu göstərir".

Nazirin sözlərinə görə, 2026-cı il yanvarın 1-nə borc portfeli 17,8 milyard manat daxili dövlət borcu və 8,2 milyard manat xarici dövlət borcundan ibarət olub. Cari ilin iyunun 1-nə isə daxili dövlət borcu 16,2 milyard manata, xarici dövlət borcu isə 7,9 milyard manata enib.

Maliyyə naziri dövlət borcunun xarici risklərə həssaslığının da azaldığını vurğulayıb."İstiqrazların orta ödəmə müddəti il ərzində 2,2 dəfə artaraq 3,3 ilə çatıb. Hazırda bu göstərici 3,83 ildir. Eyni zamanda portfeldə 5 il və daha uzunmüddətli istiqrazların payı 0,6 faizdən 49 faizə yüksəlib", - deyə o bildirib.

Sahil Babayev Azərbaycanın strateji valyuta ehtiyatlarının da artdığını diqqətə çatdırıb. Nazirin sözlərinə görə, 2026-cı il iyunun 1-nə strateji valyuta ehtiyatlarının həcmi 88,4 milyard dollara çatıb.

"Bu vəsait xarici dövlət borcunu 19,2 dəfə üstələyir. Bu da ölkənin maliyyə dayanıqlığının mühüm göstəricilərindən biridir", - deyə nazir qeyd edib.

S.Babayev əlavə edib ki, 2025-ci ildə Azərbaycan Dövlət Neft Fondundan dövlət büdcəsinə 8,5 milyard dollar həcmində transfert həyata keçirilib və bu göstərici proqnoz səviyyəsində icra olunub.

"Orta müddətli dövrdə məqsədimiz büdcənin neft gəlirlərindən asılılığını azaltmaqdır. Bu çərçivədə 2029-cu ilədək transfertlərin 6 milyard dollara endirilməsi nəzərdə tutulur", - deyə o vurğulayıb.

Nazir bildirib ki, ötən il dövlət büdcəsi profisitlə icra olunub və gəlirlərin proqnozdan artıq daxil olması müsbət büdcə saldosunun formalaşmasına imkan verib.

Onun sözlərinə görə, cari xərclərin qeyri-neft gəlirləri hesabına maliyyələşdirilməsi səviyyəsi artıq 92 faizə çatıb və bu göstəricinin 2029-cu ildə 100 faizə çatdırılması hədəflənir.

YENİ MÜSAVAT
N 22 (8871) 10 iyun 2026

## Rubiodan sülh sazişi açıqlaması



**ABŞ dövlət katibi Marko Rubio Birləşmiş Ştatların Vaşinqton sülh sammitinin məqsədlərini irəlilətməyə sadiq olduğunu bildirib.**

“Report”un məlumatına görə, Dövlət Departamentinin rəhbəri bu barədə Ermənistanın baş naziri Nikol Paşinyanın partiyasının parlament seçkilərində qələbəsindən sonra X sosial şəbəkəsində yazıb.

“Biz tarixi Vaşinqton sülh sammitinin məqsədlərini irəlilətməyə, o cümlədən "Beynəlxalq sülh və rifah naminə Tramp Marşrutu"nun (TRIPP) reallaşdırılmasına sadiqik. Cənubi Qafqaza və onun hüdudlarından kənara sülh, sabitlik və rifah gətirmək üçün birlikdə işləməyi səbirsizliklə gözləyirik", - Rubio qeyd edib.

Qeyd edək ki, ABŞ dövlət katibi Ermənistanın baş naziri Nikol Paşinyanı parlament seçkilərində qələbə münasibətilə təbrik edib.

“Baş nazir Nikol Paşinyanı və onun partiyasını yenidən seçilmələri münasibətilə təbrik edirik.

Birləşmiş Ştatlar baş nazir Paşinyanı və Ermənistanı sülhə nail olmaq istiqamətindəki səylərində dəstəkləyir. Biz tarixi Vaşinqton Sülh Sammitinin məqsədlərinin irəlilədilməsi, o cümlədən “Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu”nun (TRIPP) praktiki şəkildə həyata keçirilməsi istiqamətində tam sadiqliyimizi ifadə edirik. Biz həm Cənubi Qafqazda, həm də onun hüdudlarından kənarda sülhün, sabitliyin və rifahın təmin olunması naminə birgə işləməyi səbirsizliklə gözləyirik", - deyə məktubda bildirilir.

## Tramp onu bu sözlərlə sülhə gətirib



**ABŞ Prezidenti Donald Tramp son sutka ərzində İsrailin baş naziri Benyamin Netanyahu ilə apardığı danışıqların məzmununu açıqlayıb. Tramp İsrailin 12-ci telekanalına verdiyi müsahibədə deyib: “Mən Bibiyə dedim ki, son dərəcə ehtiyatlı olmalıdır”, - deyən Tramp əlavə edib: “İsrail təyyarələri artıq İrana doğru yola çıxmışdı, lakin mən həmin hücumun miqyasını azaltmağa nail oldum”.**

ABŞ lideri bildirib ki, son 24 saat ərzində keçirilən gərgin danışıqlar zamanı o, Netanyahunu münaqişənin genişmiqyaslı müharibəyə çevrilməsinin fəlakətli nəticələri barədə birbaşa xəbərdar edib.

“Mən Bibiyə dedim: hərəkətlərində çox ehtiyatlı ol, çünki çox keçmədən İranla təkbətək qala bilərsən”, - deyə Tramp bildirib.

Tramp vurğulayıb ki, Vaşinqtonla Tehran arasında vasitəçilik səylərində iştirak edən Yaxın Şərqin beş ölkəsinin lideri ondan Netanyahuya maksimum təzyiq göstərməyi xahiş edib. Regional oyunçuların əsas məqsədi qarşılıqlı zərbələri dayandırmaq və hərtərəfli sazişin imzalanmasına doğru irəliləməkdir.

“Bu səhər iranlılar bizimlə əlaqə saxlayaraq bildirdilər ki, artıq İsrailə zərbə endirməyəcəklər. Onlar bizdən İsrailə hücumları dayandırmağı çatdırmağımızı xahiş etdilər. Mən dərhal Bibiyə zəng etdim və onu dayanmağa məcbur etdim”, - deyə Tramp açıqlayıb.

**Moskvanın Azərbaycanla münasibətlərin müsbət dinamika üzrə inkişaf etdiyini bəyan etməsi və Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanması üçün platforma təqdim etməyə hazır olduğunu bildirməsi Rusiyanın Cənubi Qafqazda təsirini qorumaq niyyətindən xəbər verir. “Yeni Müsavat”ın siyasət şöbəsi yazır ki, regionda geosiyasi vəziyyətin dəyişdiyi bir vaxtda Kreml mövqelərini itirməmək üçün daha fəal siyasət yürütməyə başlayıb. Moskvanın təşəbbüsləri artıq danışıqların başlanmasından çox prosesin formal yekunlaşmasına yönəlib.**

# Sülh sazişinə “ev sahibliyi” uğrunda rəqabət qızışır

### Bakı ilə İrəvanın yekun imzanı harada atacağı böyük güclər arasında nüfuz mübarizəsinin mühüm epizoduna çevrilməkdədir; Moskva yenidən fəallaşır



Çünki sülh müqaviləsinin əsas mətninin böyük hissəsi tərəflər arasında razılaşdırılıb. Bu isə o deməkdir ki, məsələ artıq texniki və siyasi detalların tamamlanmasına gəlib çatıb. Belə bir mərhələdə isə “harada imzalanacaq” sualı geosiyasi rəqabətin əsas predmetinə çevrilir. Buna baxmayaraq, həm Bakı, həm də İrəvan Rusiyanın vasitəçilik platformasını diplomatik şəkildə geri çevirə bilər. Bunun başlıca səbəblərindən biri ABŞ-nin prosesdə artan fəallığıdır. Vaşinqton son aylarda regionda diplomatik aktivliyini xeyli artırıb və sülh gündəliyində əsas oyunçulardan birinə çevrilib. Hətta sülh sənədinin ilkin paraflanmasının Ağ Evdə baş tutması ehtimalı yekun imzanın da ABŞ paytaxtında atılmasını real ssenari kimi gündəmə gətirir.

ABŞ Prezidenti Donald Tramp da çıxışlarında Azərbaycan-Ermənistan münasibətlərində əldə olunan irəliləyişlərdə Vaşinqtonun rolunu xüsusi vurğulayır. Bu isə göstərir ki, sülh prosesi artıq yalnız regional deyil, qlobal siyasi rəqabətin bir hissəsinə çevrilib. Bu kontekstdə Rusiya Prezidenti Vladimir Putin region ölkələrinin liderləri ilə təmaslarını intensivləşdirib və xüsusilə Ermənistandakı daxili siyasi prosesləri diqqətlə izləyir. Moskva üçün İrəvanda baş verən siyasi dəyişikliklər həm də regiondakı ümumi güc balansına birbaşa təsir edən amil kimi qiymətləndirilir.

Beləliklə, Azərbaycan-Ermənistan sülh sazişinin imzalanması yalnız iki ölkə arasında münasibətlərin normallaşması deyil, eyni zamanda böyük güclər arasında nüfuz mübarizəsinin mühüm epizoduna çevrilməkdədir. Bu isə sənədin harada və hansı şərtlər altında imzalanacağını ən azı məzmunu qədər əhəmiyyətli edir.

“Biz Ağ Evdə görüşdüyümüz zaman irəliyə doğru addım atdıq və Ermənistanla Azərbaycan arasında uzunmüddətli sülhə nail olduq”. Bu barədə iyunun 1-də ABŞ Prezidenti Donald Trampın “Bakı Enerji Həftəsi”nə ünvanladığı məktubda deyilir. “Bildiyiniz kimi, regional enerji inteqrasiyası avqustun 8-də keçirilmiş tarixi sülh sammitinin əsas sütunudur. Mənim Administrasiyam bu mövzu ilə əlaqədar iyun ayında məhsuldar müzakirələri səbirsizliklə gözləyir. Biz birlikdə sülhü irəliyə doğru aparacaq, rifahı gücləndirəcək və Sizin bölgədə, bütün dünyada daha əmin gələcək quracağıq”, - Tramp qeyd edib.

“TRİPP layihəsi Ermənistan və Azərbaycan arasında sülh sazişinin lövbəridir”. Bu sözləri isə iyunun 2-də ABŞ dövlət katibi Marko Rubio Senatın Xarici Əlaqələr Komitəsində dinləmələr zamanı deyib və Vaşinqtonun rolunu bir daha qabardıb. Rubio bildirib ki, o, əslində lövbərdən daha artıqdır və inqilabi xüsusiyyətə malikdir: “Beləliklə, biz hazırda bu işdə çox fəal iştirak edirik. Biz, sözün əsl mənasında, müqaviləni imzaladıq və bu, bizə özəl sektorun, Amerika maraqlarının xeyrinə, eləcə də Ermənistan, Azərbaycan və digər regional ölkələrin xeyrinə Amerika şirkətlərinin investisiya qoymasına imkan verəcək”.

“Yeni Müsavat”a danışan **deputat Elşad Musayev** da əmindir ki, yekun sülh müqaviləsi Vaşinqtonda imzalanacaq. Onun sözlərinə görə, sülh mətni harada paraflanıbsa, yekun imza da orada atılacaq: “Çünki Tramp administrasiyası sülh prosesində moderatorluq təşəbbüsünə tamamilə yiyələnib. Bu prosesin bir hissəsi də TRİPP layihəsi olduğu üçün tərəflərin tarixi sülh müqaviləsini ABŞ-də imzalayacağını gözləyirəm. Sözsüz ki, alternativ versiyalar da var. Misal üçün, Gürcüstanın paytaxtında, yaxud sərhədin delimitasiya olunmuş yerində rəmzi məna daşısın deyə ikitərəfli görüşlə sənəd imzalana bilər. Artıq tərəflər arasında etimad formalaşıb və sərhədin ilk delimitasiya olunmuş hissəsində sazişin bağlanması istisna deyil. Lakin bu versiyaları az ehtimal sayıram”.

**O hesab edir ki, ABŞ bu prosesi irəli aparan güc mərkəzidir və Tramp son nöqtənin də Ağ Evdə qoyulmasını istərdi:** “Buna qədər ABŞ lideri dəfələrlə prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan barəsində xoş sözlər deyib, onları özünün dostu adlandırıb, təbrik məktubları yollayıb, Qəzza üçün Sülh Şurasına dəvət edərək orada da hamının gözü önündə xüsusi qiymətləndirib. Son olaraq da Bakı Enerji Həftəsinə göndərdiyi məktubda bir daha vurğulamışdı ki, iyundan sonra danışıqlarda irəliləyiş gözləyir. Bu mənada ortada bir ehtiram və hörmət məsələsi dayanır. Ona görə də liderlərin yekun sülh müqaviləsini ABŞ-də imzalayacağını güman edirəm”.

**E.Musayevin fikrincə, Rusiyanın könlündən sənədin Moskvada imzalanması keçir:** “Bu, sırf öz piarına hesablanmış niyyətdir. Rusiya bununla göstərmək istəyir ki, 44 günlük müharibədə atəşkəsin əldə olunmasında da onun iştirakı olub, yekun sülh müqaviləsinin bağlanmasında da. Əslində 2020-2023-cü illər ərzində Kremlin belə bir fürsəti var idi. Üçtərəfli 10 noyabr sazişindən irəli gələrək həm Zəngəzur dəhlizinin açılması, həm sülh sənədinin imzalanması üçün əla imkan yaranmışdı. Həmin dövrdə Bayden administrasiyası və Avropa Birliyi prosesə şərik çıxa bilmirdilər. Yalnız bir dövr Brüssel və Makron şərik çıxmağa çalışdılar, amma yenə də Moskvanın gücü daha çox idi”.

**Deputatın sözlərinə görə, buna baxmayaraq, Kreml bu şansı itirdi, sonra Ukrayna müharibəsindən çıxa bilmədi və zəiflədikcə regional siyasətində mövqeyini əldən verdi:** “Üstəlik, heç bir töhfəsi olmadı, prosesi ləngitməyə çalışdı və tərəflər də bu hiyləni anladılar. Halbuki Rusiya sənədin imzalanmasında rol oynasaydı, Cənubi Qafqazda təsirləri artacaqdı. Ona görə də bu gün Rusiyanın belə bir istəyi olsa da, liderlərin sənədə Moskvada imza atacağı inandırıcı görünmür. Çünki bu müddətdə regionda ciddi dəyişikliklər olub, yeni reallıqlar meydana gəlib”.

❑ **Emil SALAMOĞLU,
“Yeni Müsavat”**

# Putinin anons etdiyi o görüş - Moskvanın strateji hədəfi

**Rusiya prezidentinin forumda Azərbaycanın adını xüsusi vurğulaması qlobal diplomatik kulislərdə əks-səda doğurub; bu il liderlər bir araya gələ bilər - Kremlin gözləntisi**

**İyunun 4-5-də Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu (SPIEF) çərçivəsində Rusiya Prezidenti Vladimir Putinin Azərbaycanın adını xüsusi vurğulaması və rəsmi Bakıya yönəlik yüksək dövlət təşəkkürü səsləndirməsi qlobal diplomatik kulislərdə böyük əks-səda doğurub. “Yeni Müsavat” xatırladır ki, forumda çıxışı zamanı Kreml rəhbəri “Azərbaycan tərəfi böyük həcmdə effektiv iş gördü, bütün sorğularımıza dərhal cavab verdi. Bu, vəziyyəti yüngülləşdirmək baxımından çox vacib idi” ifadələrini işlədərək rəsmi Bakının regional proseslərdəki rolunu ön plana çıxarıb.**

Kremlin beynəlxalq platformalarda digər bir dövlətdən bu formatda və açıq minnətdarlıq ritorikası ilə bəhs etməsi adi diplomatik praktika deyil. Putin bu bəyanatı ilə həm Azərbaycana qarşı ictimai təşəkkürünü bildirdi, həm də Moskva ilə Bakı arasında ən ali səviyyədə yeni görüş planının anonsunu vermiş oldu. Azərbaycan və Rusiya prezidentləri arasında planlaşdırılan görüş haqda heç bir rəsmi bilgi yoxdur. Bu il prezidentlər üz-üzə rəsmi görüş keçirməyiblər. Lakin liderlər il ərzində ikitərəfli əlaqələri inkişaf etdirmək üçün mütəmadi olaraq telefon danışıqları olub, müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Bu təmas ilk növbədə Moskva üçün strateji xarakter daşıyır. Çünki Rusiya dəyişən geosiyasi reallıqlar fonunda Bakı ilə münasibətlərin sabit və proqnozlaşdırılan xətt üzrə davam edəcəyinə əmin olmaq istəyir. Kreml üçün Azərbaycanla tərəfdaşlıq yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, həm də bütövlükdə Cənubi Qafqazda təsir rıçaqlarının qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusilə regionda Qərbin, o cümlədən ABŞ-nin artan fəallığı Rusiyanı Bakı ilə dialoqu daha intensiv və praqmatik etməyə vadar edir. Nəticə etibarilə, gözlənilən görüş təkcə iki ölkə arasında münasibətlərin cari vəziyyətini deyil, həm də yaxın perspektivdə regional güc balansının hansı istiqamətdə inkişaf edəcəyini müəyyən edən əsas amillərdən biri kimi qiymətləndirilir.

Yeri gəlmişkən, Bakı ilə yaxınlaşmanın həvəsini göstərən əlamətlərdən biri də xarici işlər nazirinin müavini Mixail Qaluzinin sözləri oldu. “Azərbaycanın Avrasiya İqtisadi Birliyinə (AİB) üzvlüyünü təşviq etməyə hazırıq”, - deyə Qaluzin ölkəsinin arzularını ifadə edib. “Aprel ayında Zəngilanda keçirilən görüşdən sonra ticarət dövriyyəsinin artırılması və sənayedə institutsional əməkdaşlığın inkişaf etdirilməsi üçün tədbirlər siyahısı hazırlanıb. Rusiya biznesinin Qarabağ və Şərqi Zəngəzur bölgələrində yenidənqurma layihələrində iştirakı üçün imkanlar müəyyən edilib. Rusiya Azərbaycanı Avrasiya İqtisadi Birliyinə yaxınlaşdırmaqda maraqlıdır”, - o bildirib.

Qeyd edək ki, Bakı və Moskva hazırda ikitərəfli münasibətlərin normallaşdırılmasının aktiv mərhələsindədir. Rusiyadakı səfirimiz Rəhman Mustafayev xarici işlər naziri Ceyhun Bayramovun iyulda Moskvaya qarşıdan gələn işgüzar səfərini, iyulun ortalarında isə Rusiya Federal Məclisi ilə Azərbaycan Milli Məclisi arasında Əməkdaşlıq üzrə Parlamentlərarası Komissiyanın iclasının və bu payızda keçirilməsi planlaşdırılan Azərbaycan-Rusiya Regionlararası Forumunun keçiriləcəyini açıqlayıb.

Bayramovun Moskva səfərindən sonra istisna deyil ki, liderlərin görüşün hazırlıq da müzakirə oluna bilər. Hərçənd bu haqda rəsmi təsdiq yoxdur. Lakin Putinin o çıxışı belə bir gözlənti olduğunu deməyə əsas verir. Yada salaq ki, liderlər sonuncu dəfə Düşənbədə bir araya gəliblər.

**Professor Qabil Hüseynli**nin “Yeni Müsavat”a bildirdiyinə görə, Rusiya Azərbaycanla gərginlik mərhələsini geridə qoyaraq irəliyə baxmaq istəsə də, imperiya təfəkkürü münasibətlərdə bərabərhüquqlu yanaşmağa bəzi hallarda əngəl olur. Bununla yanaşı, tərəflər arasında soyuqqanlı bir yaxınlaşma olduğunu deyən politoloqun fikrincə, hər şey əvvəlki kimi də olmayacaq.

Q.Hüseynli bunu Rusi**yanın siyasəti ucbatından irəli gəldiyini düşünür və 2020-2023-cü illərdə olan əlaqələr səviyyəsinə qayıdışı real hesab etmir:** “Təbii ki, münasibətlərdə bir çat yarandı. Amma Azərbaycan qonşuluq prinsiplərini üstün tutur. Biz hər zaman Rusiyaya göstərmişik ki, ona yaxşı qonşuyuq, əleyhinə heç bir addım atmamışıq. Rusiya dövlət başçısı İrandan vətəndaşlarının təxliyəsinə görə cənab İlham Əliyevə təşəkkür edib. Yəni Azərbaycanın siyasəti qarşılıqlı əməkdaşlığa söykənir. Ancaq Rusiya hesab edir ki, onun diktəedici siyasətinə qonşuları boyun əyməlidir. Biz də bu yanaşmanı həmişə rədd etmişik”.



**Professor hesab edir ki, Vətən müharibəsindən sonra əlaqələrdə xeyli yaxınlaşma var idi:** “Hətta müstəqillik illərində heç vaxt olmadığı qədər münasibətlər yüksək səviyyədə inkişaf edirdi. Bu əlaqələri pozan hadisə təkcə təyyarənin vurulması olmadı, həm də Zəngəzur koridoru və digər strateji məsələlərdə fikir ayrılığı yarandı. Rusiya isə Cənubi Qafqazda yenə oyunlarını davam etdirmək istəyirdi. Azərbaycanın bu siyasətlə razılaşmaması əlaqələrdə soyuqluq yaratdı. Ona görə də tərəflər geridə qalan gərginlik dövrünü unudurlar və indi yeni münasibətlər sistemi başlayır. Bu dəfə Moskva ritorikasını dəyişməyə məcburdur. Yəni Azərbaycanla təzyiq dilində danışmaq mənasız idi və bunu anladılar. Çünki bölgədə fərqli proseslər cərəyan edir və Rusiya heç də Cənubi Qafqazın ağası deyil”.

**Q.Hüseynli prezidentlərin görüşünü istisna etmir, lakin bunun üçün zamana ehtiyac olduğunu düşünür:** “Rusiya sülh prosesinə dəstək adı ilə yenidən regionda aktivləşməyə çalışır. Ancaq Bakı və İrəvan Putinin masasında bunu müzakirə etmək istəmirlər. Ona görə də münasibətlərdə daha çox iqtisadi məsələlər, ticarət dövriyyəsi, müxtəlif layihələr və logistikalar müzakirə oluna bilər. Zənnimcə, Rusiya bölgəyə iqtisadi doktrina ilə qayıtmağı düşünməyə məhkumdur. Çünki müharibə Rusiyanın imkanlarını məhdudlaşdırıb. O baxımdan, əgər liderlərin görüşü baş tutsa, tərəflər arasında söhbətin əsas məzmununu iqtisadi məsələlər təşkil edəcək”.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

## Rusiya revanşistlərin məğlubiyyətini tanıyacaqmı?

**“Ermənistandakı seçki prosesi hazırda tam hesab edilə bilməz, çünki müxalifət siyasi qüvvələrinin liderləri hələ seçki nəticələrini tanıyan bəyanatlar verməyiblər”.**

“Yeni Müsavat” xəbər verir ki, bu barədə Aysor.am saytı yazıb.

Sayta danışan analitik Armen Badalyanın sözlərinə görə, hazırkı mərhələdə xarici oyunçuların, ilk növbədə Rusiyanın reaksiyası çox vacibdir. “Rusiya tərəfinin mövcud vəziyyəti qəbul edib-etməyəcəyini anlamaq vacibdir. Əgər belədirsə, bu, Rusiyanın nisbətən qısa müddət ərzində Ermənistandan çəkilməyə başlayacağı anlamına gələcək. Buraya hərbi bazanın çıxarılması, dəmir yolu lisenziyasının ləğvi və "Qazprom"un mümkün geri çəkilməsi daxil ola bilər. Əgər Moskva bu nəticələri qəbul etməsə, təbii ki, müəyyən hərəkətlər ediləcək. Moskva öz qiymətləndirməsində hazırda gözləmə mövqeyi tətbiq edir. Bu nəticələri qəbul etmək Ermənistandan tədricən çıxmağa razılıq vermək demək olardı. Bu arada Rusiya artıq Ermənistanı tərk etmək niyyətində olmadığını bildirib, ona görə də müəyyən addımlar gözləmək olar. Bu addımların dəqiq nə olacağını demək çətindir", - deyə analitik qeyd edib.

Qeyd edək ki, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Ermənistanda seçki prosesi zamanı demokratik prinsiplərin və prosedurların kobud şəkildə pozulduğunu iddia edib. Zaxarovanın sözlərinə görə, seçki kampaniyası və səsvermə prosesi müxalif siyasi qüvvələrə, onların fəallarına və tərəfdarlarına qarşı təzyiqlər şəraitində keçib.

“Bütün seçki kampaniyası və səsvermə prosesi müxalifət partiyalarına və hərəkatlarına, onların fəallarına və tərəfdarlarına qarşı sərt repressiyalar şəraitində keçib. Təqib dalğası ölkədə ənənəvi olaraq yüksək nüfuza malik olan Erməni Apostol Kilsəsini də əhatə edib. Bütün bunlar İrəvan tərəfindən demokratik prinsiplərin və azad seçkilərin keçirilməsi prosedurlarının kobud şəkildə pozulmasıdır”, - deyə o bildirib.

Moskvanın Ermənistanla gələcək münasibətlərinə toxunan Zaxarova bildirib ki, Rusiya öz siyasətini Ermənistan rəhbərliyinin gələcək addımlarını nəzərə alaraq formalaşdıracaq. “Ermənistanla münasibətlərdə gələcək kursumuzu Ermənistan rəhbərliyinin real addımlarını nəzərə alaraq qurmaq niyyətindəyik”, - deyə Mariya Zaxarova vurğulayıb.

❑ **“Yeni Müsavat”**

# “Üçbaşlı müxalifət” Ermənistana qarşı

## Moskvanın dəstəklədiyi müxalifət İrəvanda yeni siyasi böhran yarada bilər; Bakıdan reaksiyalar...

**Ermənistanın baş naziri Nikol Paşinyan parlamentə düşən “Güclü Ermənistan” bloku, “Ermənistan” bloku və “Çiçəklənən Ermənistan” Partiyasını nəzərdə tutaraq, onların məğlub edildiyini qeyd edib.**









Paşinyanın sözlərinə görə, bu vacib olsa da, lakin son nəticə deyil: “Xalq Ermənistanda üçbaşlı müharibə partiyasının və onu müşayiət edən cinayətkar oliqarxik sistemin aradan qaldırılması iradəsini açıq şəkildə ifadə edib. Əlbəttə ki, bu, siyasi əksəriyyətin və hökumətin ən vacib vəzifələrindən biri olacaq və biz bunu təxirə salmadan, çox qətiyyətli və aydın addımlarla həyata keçirməliyik”.

“Güclü Ermənistan” blokunda aparıcı qüvvə Samvel Karapetyanın liderlik etdiyi partiyadır. “Güclü Ermənistan” parlamentdə 29 mandatla təmsil olunacaq. 1965-ci il təvəllüdlü Samvel Karapetyan Rusiyada fəaliyyət göstərən biznesmendir. 2025-ci ilin iyun ayında hakimiyyəti zorla ələ almağa çağırış ittihamı ilə həbs edilib, dekabrda ev dustaqlığına buraxılıb. Partiya 2026-cı ilin yanvarında təsis olunub.

“Ermənistan” blokunun namizədlərinin siyahısına Robert Köçəryan başçılıq edir. Bu blok 12 deputat yeri əldə edib.

1954-cü il təvəllüdlü Robert Köçəryan 1992-1997-ci illərdə Azərbaycanın Qarabağ bölgəsindəki işğalçı rejimin başçısı olub. 1997-ci ilin martında Ermənistanın baş naziri postuna keçib. 1998-ci ilin fevralında prezident Levon Ter-Petrosyan istefa verib. Baş nazir kimi prezident səlahiyyətlərini icra etməyə başlayan Robert Köçəryan 1998 və 2003-cü illərdə dövlət başçısı seçilib.

"Çiçəklənən Ermənistan" Partiyasının lideri Qaqik Sarukyan səslərin 3,996 faizini qazandığı üçün 4 faizlik seçki barajını seçə bilməyib və parlamentə düşməyib. 1956-cı il təvəllüdlü Qaqik Tsarukyan biznesmendir. “Çiçəklənən Ermənistan” Partiyasını 2004-cü ildə yaradıb. 2003, 2007, 2012, 2017, 2018-ci illərdə parlamentin deputatı seçilib. Qaqik Tsarukyanın “Çiçəklənən Ermənistan” Partiyası səslərin 3,996 faizini qazandığı üçün 4 faizlik seçki barajını seçə bilməyib və parlamentə düşməyib.

Moskvanın nəzarətindəki “üçbaşlı erməni müxalifəti” Paşinyan hökumətinə ciddi problemlər yarada biləcək və şübhə yoxdur ki, parlamentdə revanşistlərin ruporu olacaq.

**Milli Məclisin deputatı Azər Badamov** “Yeni Müsavat”a dedi ki, qarşıdakı mərhələdə Ermənistanda müəyyən çətinliklərin yaranacağı gözlənilir: "Paşinyan Azərbaycanla yekun sülh müqaviləsinin imzalanması istiqamətində irəliləmək üçün Ermənistan Konstitusiyasında dəyişikliklərin edilməsini və bununla bağlı referendum keçirilməsini gündəmə gətirməli olacaq. Lakin referendumun keçirilməsi və zəruri qərarların qəbul olunması üçün onun parlamentdəki çoxluğu kifayət etmir. Digər tərəfdən, müxalifətin də parlamentdə kifayət qədər təmsil olunduğunu nəzərə almaq lazımdır. Bu səbəbdən yeni formalaşacaq parlamentdə bütün məsələlərin rahat və maneəsiz şəkildə həll olunacağını gözləmək çətindir. Rusiyayönümlü siyasi qüvvələrin təmsilçiləri müəyyən taleyüklü qərarların qəbul olunmasına maneələr yaratmağa və ya prosesi ləngitməyə çalışa bilərlər. Ancaq onu da nəzərə almalıyıq ki, müxalifət daxilində təmsil olunan bir sıra deputatlar biznes dairələri ilə bağlı olan, iqtisadi maraqları ön planda tutan şəxslərdir. Belə insanlar adətən siyasi gərginlikdən və qeyri-müəyyənlikdən daha çox sabitlikdə maraqlı olurlar. Bu baxımdan, Paşinyanın müəyyən məsələlərdə müxalifətdən olan bəzi deputatların dəstəyini qazanmaq imkanlarının olduğunu düşünürəm. Çünki biznes nümayəndələri üçün regional sabitlik, kommunikasiyaların açılması və iqtisadi əlaqələrin genişlənməsi mühüm əhəmiyyət daşıyır. Əlbəttə, Paşinyan bu istiqamətdə addımlar atdıqca həm daxildə radikal müxalifətin, həm də xaricdə regionda sülhün möhkəmlənməsində maraqlı olmayan müəyyən qüvvələrin təzyiqləri ilə üzləşə bilər. Buna görə də prosesin sürətli və problemsiz gedəcəyini gözləmək doğru olmaz.

Bununla yanaşı, Ermənistanda formalaşan çoxşaxəli müxalifətin Paşinyan komandasına qarşı sərt siyasi mövqe nümayiş etdirməsinə baxmayaraq, ölkənin gələcəyi ilə bağlı taleyüklü məsələlərdə daha praqmatik davranacağını düşünürəm. Məhz bu səbəbdən Azərbaycanla yekun sülh müqaviləsinin imzalanması, regional nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi və iki ölkə arasında münasibətlərin normallaşdırılması çətin və mürəkkəb proses olsa da, ümumi istiqamətin dəyişməyəcəyini hesab edirəm".

“Hesab edirəm ki, Moskvanın təsiri altında olan və müxtəlif siyasi mərkəzləri təmsil edən revanşist erməni müxalifəti qarşıdakı dövrdə Paşinyan hakimiyyəti üçün ciddi siyasi çətinliklər yaratmağa çalışacaq. Bu qüvvələri bir araya gətirən əsas amil alternativ inkişaf proqramı təqdim etmələri deyil, Paşinyanın həyata keçirməyə çalışdığı siyasi kursa qarşı çıxmaları və revanşist ritorikanı yenidən gündəmə gətirmək cəhdləridir”. Bu sözləri isə **Milli Məclisin deputatı Vüqar İskəndərov** deyib. Onun sözlərinə görə, Robert Köçəryanın seçkilərin nəticələrini tanımayacağını bəyan etməsi göstərir ki, siyasi mübarizə yalnız parlament çərçivəsində aparılmayacaq: "Belə bəyanatlar cəmiyyətdə siyasi gərginliyi artırmağa, seçkilərin legitimliyi ətrafında müzakirələri daha da dərinləşdirməyə və hökumət üzərində əlavə təzyiq formalaşdırmağa hesablanmış addımlar kimi görünür. Bu isə Ermənistanın daxili siyasi sabitliyi baxımından yeni risklər yarada bilər".

**Millət vəkili bildirib ki, Paşinyanın konstitusiya çoxluğunu əldə edə bilməməsi gələcək siyasi prosesləri daha da mürəkkəbləşdirəcək:** "Konstitusiya dəyişiklikləri, dövlət idarəçiliyi sistemində islahatlar və uzunmüddətli strateji qərarların qəbulu geniş parlament dəstəyi tələb edir. Belə bir imkanın məhdud olması hökuməti müxtəlif siyasi kompromislər axtarmağa məcbur edə, qərarların qəbulunu isə ləngidə bilər. Müxalifət də bu vəziyyətdən istifadə edərək həm parlament daxilində, həm də küçə siyasəti vasitəsilə hakimiyyətin fəaliyyətini çətinləşdirməyə çalışacaq. Xüsusilə Azərbaycanla sülh gündəliyi, regional kommunikasiyaların açılması və münasibətlərin normallaşdırılması kimi məsələlərin daxili siyasi mübarizənin alətinə çevrilməsi ehtimalı yüksəkdir. Revanşist qüvvələr bu mövzular üzərindən cəmiyyətdə emosional əhval-ruhiyyə formalaşdırmağa cəhd göstərə bilərlər".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Xaricdə döyüşən Azərbaycan vətəndaşlarına xəbərdarlıq

## XİN: “Münaqişə zonalarında və onların yaxınlığında yerləşən ərazilərdə...”

**Məlumdur ki, mövcud beynəlxalq təhlükəsizlik mühitində daha da artan gərginlik, müxtəlif regionlarda, o cümlədən Ukrayna və Yaxın Şərqdə davam edən silahlı münaqişələr beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid olaraq qalmaqdadır.**



Bu barədə Xarici İşlər Nazirliyinin (XİN) bəyanatında bildirilib.

“Təəssüf ki, belə ərazilərdə olan Azərbaycan vətəndaşlarının silahlı toqquşmalar və hərbi əməliyyatlar nəticəsində həlak olması və ya müxtəlif dərəcəli bədən xəsarətləri alması halları qeydə alınır.

Bu cür hadisələr münaqişə zonalarında və onların yaxınlığında yerləşən ərazilərdə təhlükəsizlik risklərinin son dərəcə yüksək olduğunu bir daha nümayiş etdirir və həmin bölgələrə səfər edən və ya fəaliyyət göstərən vətəndaşlarımızın həyat və sağlamlığı üçün ciddi təhlükələr yaradır.

Bu kontekstdə vətəndaşlarımıza xarici ölkələrə səfər etməzdən əvvəl təhlükəsizlik vəziyyətini diqqətlə qiymətləndirmələrinə, rəsmi dövlət qurumlarının xəbərdarlıq və tövsiyələrini nəzərə almalarına, münaqişə və hərbi əməliyyatların aparıldığı ərazilərə səfərlərdən yayınmalarına bir daha çağırış edirik.

Bununla yanaşı, vətəndaşların muzdlu və ya könüllü əsasda xarici dövlətlərin ərazisində silahlı münaqişələrdə və hərbi əməliyyatlarda hər hansı bir formada iştirakının Azərbaycan qanunvericiliyinə uyğun olaraq cinayət məsuliyyəti ehtiva etdiyini bir daha diqqətə çatdırırıq.

Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları xaricdə olan vətəndaşlarımızın hüquq və maraqlarının müdafiəsi istiqamətində fəaliyyətlərini davam etdirir.

Bununla yanaşı, hər bir vətəndaşın öz təhlükəsizliyinə məsuliyyətlə yanaşması və yüksək riskli fəaliyyətlərdən uzaq durması xüsusi əhəmiyyət kəsb edir.

Xarici İşlər Nazirliyi beynəlxalq vəziyyətlə bağlı inkişafları diqqətlə izləməyə davam edir", - bəyanatda vurğulanıb.

YENİ MÜSAVAT
N 22 (8871) 10 iyun 2026




# Ermənistanı zəncirdən xilas etmək istəyən erməni

## Çörçildən fərqli olaraq, müharibəni uduzub, iki seçkini udan Nikol Paşinyan kimdir...

**“Qarabağ problemi erməni xalqının ayağına vurulan zəncirdir və biz ondan xilas olmalıyıq...” Bu sözləri Ermənistan hökumətinin başçısı Nikol Paşinyan nə 44 günlük müharibədən sonra, nə son parlament seçkiləri ərəfəsində deyib. Nikol bu çağırışı edəndə adi bir tənqidçi jurnalist və qəzetçi idi. Bu, o zaman idi ki, Qarabağdan işğalçı qoşunlarının çıxarılması ermənilərin ağlının heç ucundan keçmirdi. Amma Nikol belə bir cəsarətli fikri qələmə almış və azərbaycanlılarla sülh yolunu ermənilərin ayağına vurulmuş zəncirləri qoparmaqda görmüşdü.**

Paşinyanın jurnalist işləyərkən Ermənistanda o vaxtlar ən məşhur “Mollak” qəzetindəki yazılarından daha biri də yada düşür: 11 fevral 1998-ci ildə “Ermənilər və azərbaycanlılar - xoşbəxt xalqlar” başlığı altında çıxan məqaləsində ermənilərin düşüncə tərzində problemlər olduğunu bildirir. O yazır ki, bu düşüncə pozğunluğu günahsız azərbaycanlı və türklərin ölməsindən gedəndə özünü daha açıq büruzə verir.

Paşinyan məqaləsində qeyd edir ki, Bakıda günahsız öldürülən insanlar qarşısında baş əyir: “20 Yanvar günü mən bakılıları 1 dəqiqəlik sükutla yad edim...”

Bəli, gün gəldi, bu sözləri yazan Paşinyan təkcə jurnalist yox, həm də müxalifətin fəallarından biri kimi meydana çıxdı. Sonra həbs, sonra yenə mübarizə, 2008-ci il 1 mart qırğınında repressiyaya məruz qalmaq...

### Əli sarıqlı, çiynində çantası...

Ancaq bu hadisələrdə Azərbaycan cəmiyyəti Nikol Vovayeviç Paşinyan adlı bir persona tanımırdı. Və yalnız 2018-ci ilin hərəkatında biz saqqallı, kürəyində çantası, üzərində hərbi formalı köynəyi, biləyinin biri sarılmış şəxs gördük. O, keçmiş “Qarabağ klanı”nı devirmək üçün çırmanmış və erməni gəncliyini arxasınca aparmağı bacarmışdı. Nəhayət, “Qarabağ zənciri”ndən, deyəsən, ermənilərin xilası üçün üfüqdə nəsə görünməyə başlamışdı. İcevan (Karvansaray) rayonundan olan bu gənc jurnalist Xocalı canisi Serjik Sərkisyanı günlərlə davam edən küçə hərəkatı ilə istefaya məcbur etdi. Hərçənd bu “məxməri inqilab”ın sonunda Sərkisyanın görüş zalına gəlib Paşinyanla görüşməsi və istefası özü də indiyə qədər skeptik məsələdir. 1 martda xalqını qırğın vermiş cani prezident necə oldu ki, bu dəfə qan tökmək istəmədi və ölkəni əli sarıqlı, çiynində çantası, üz-gözündən tər tökülən Paşinyana təhvil verib getdi?!

### “Məxməri inqilab”ın bir sirri

Sonralar bu haqda bəzi mülahizələr və konspirologiyalar da dolaşmağa başladı. Amma az-çox həqiqət payı da var idi. Ki, Sərkisyan bu hərəkata qədər artıq Avropa İttifaqı ilə assosiativ sənədi imzalamışdı. Yəni özü ölkəsinin Qərbə inteqrasiya kursuna “xeyir-dua” vermişdi. Sadəcə, bu siyasəti Rusiyanın təzyiqləri altında davam etdirə bilməyəcəkdi, amma Soros məktəbinin yetirməsi Paşinyan bunu bacarırdı.

Yəni bir növ latent şəkildə təslimetmə də demək olardı. Hərçənd bu fikirlər illüziya kimi görünür. Sadəcə, Sərkisyanın Fransada şərab biznesinin olduğunu, Paşinyanın dövründə ən az təzyiqə məruz qaldığını, son seçkidə isə boykot qərarı verib hakimiyyəti bu məqamda razı saldığını nəzərə alsaq, “məxməri inqilab”ın niyə qələbə çaldığını haradasa düşünməyə dəyər. Beləliklə, Ermənistanda Nikol Paşinyan erası başlanır və ölkəni bir jurnalist idarə etməyə başlayır. Əlbəttə, dünyada belə nümunələr az deyil.

### Xalq onu niyə dəstəklədi?

Bu gün isə o hadisələrdən 8 il keçir və geridə qalan müddətdə Paşinyanın dediyi olur - o zəncirdən qopurlar və bu gün ermənisiz Qarabağ hər iki tərəf üçün ən ideal nəticədir. Son seçki kampaniyasında da bütün ittihamlara, təhqirlərə məruz qalmasına, Azərbaycana “işləməkdə” günahlandırılmasına baxmayaraq, Nikol Paşinyan “Qarabağ Ermənistandır” bəyanatından “Qarabağ Azərbaycandır” həqiqətini dilə gətirməyə qədər bir yol gəlib. Yəni onu Ermənistana qarşı çıxan erməni də adlandırmaq olar.

Və erməni xalqı 44 günlük müharibədən sonra düz iki seçkidə onun “Qarabağ Azərbaycandır” etirafını qəbul edərək səs verib, iqtidarda saxlayıb. Çörçil kimi müharibəni udub, seçkini uduzan bir siyasətçidən fərqli olaraq, Paşinyan 200 illik erməni mifinin məhvinə səbəb olan savaşı uduzsa da, iki seçkini udmağı, hər ikisində keçmiş “Qarabağ klanı”nın üzvlərini məğlub etməyi bacarıb. Bu, həm də möcüzədir...

### Anadan yetim, dalaşqan...

...Nikol Paşinyan 1975-ci ildə İcevanda dünyaya gəlib. Ona İkinci Dünya müharibəsində həlak olmuş ata babasının adı verilib. Atası Vova Paşinyan sovet dövrünün tipik ziyalılarından olub. Vova ixtisasca idman müəllimi idi və yerli cəmiyyət arasında nüfuz sahibi sayılırdı. O, uzun müddət İcevandakı 1 nömrəli orta məktəbdə bədən tərbiyəsi müəllimi kimi fəaliyyət göstərib. O, millətçi düşüncələrə sahib biri kimi tanınırdı. Oğlunun jurnalistika və siyasət sahəsinə olan marağını da kiçik yaşlarından dəstəkləyib.

Nikolun anası Svetik Ovanesyan isə evdar qadın olub. O, 1987-ci ildə, Nikolun 12 yaşı olanda xəstəlikdən vəfat edib. Bu səbəbdən ailə başçısı Vova ikinci dəfə evlənib. 12 yaşında anadan yetim qalan Nikolu və qardaşlarını ögey anası Yercanik Çibuxçyan böyüdüb. Paşinyanın özündən böyük iki böyük qardaşı var - Armen və Artak.

Yeri gəlmişkən, Nikol orduda xidmət etməyib, ondan əvvəl böyük qardaşları əsgərlikdə olublar, Azərbaycanla müharibədə iştirak ediblər. Ermənistan qanunlarına görə, ailədə iki qardaş müharibədə iştirak edibsə, üçüncü qardaş hərbi xidmət keçməkdən azaddır. Paşinyana orta məktəbdə dərs demiş adını açıqlamayan müəllimlərdən biri bir müddət əvvəl “Hraparak” qəzetinə onun dəcəlliklərindən danışıb. Bildirib ki, Nikol məktəb illərində müəllimlərinə ciddi problemlər yaradırmış. “Tez-tez dərsdən qaçardı, bütün məktəbə bəla idi və iş o yerə çatdı ki, atası, məktəbdə bədən tərbiyəsi müəllimi işləyən Vova Paşinyan onu hamının gözü qarşısında döydü. Başqa sözlə desək, o, yeniyetməlik illərindən problem çıxarmaq, fitnə-fəsad törətməklə xarakterizə olunurdu”, - müəllim deyib.

Nikol 1991-ci ildə İrəvan Dövlət Universitetinin Filologiya fakültəsinin jurnalistika ixtisasına daxil olub. Tələbəlik illərində “Dprutyun”, “Hayastan”, “Lragir”, “Lragir or”, “Molorak” qəzetləri ilə əməkdaşlıq edib. Beşinci kursda Nikol universitetdən qovulub - özü bunu siyasi səbəblərlə əlaqələndirir.

Jurnalistika fakültəsinin dekanı, özü də icevanlı (Nikolun həmyerlisi - red.) olan Qarnik Ananyan onun haqqında həmişə pis danışırdı. Paşinyan təkcə dekan haqqında deyil, onun bacısı, İcevan vilayət komitəsinin katibi Cemma Ananyan haqqında da yazılar yazıb. Bir tərəfdən dərsə getmirdi, bir tərəfdən də konflikt yaradırdı, fakültə dekanı 5-ci kursda onu universitetdən xaric etmək qərarına gəldi. Bundan sonra o, ciddi şəkildə jurnalistika ilə məşğul olmağa başladı, “Planet” qəzetində çalışdı, sonra oradan ayrıldı, “Oragir”, daha sonra isə “Haykakan Jamanak” qəzetlərini açdı”, - baş nazirin keçmiş müəllimi deyib.

### Ailə biznesi - qızına şirkət, oğluna...

Onu da deyək ki, 1999-cu ildə Nikol Paşinyan gündəlik “Haykakan Jamanak” (“Ermənistan vaxtı”) qəzetini yaradıb, 2012-ci ilə qədər ona rəhbərlik edib. Daha sonra baş redaktor vəzifəsini onun keçmiş həyat yoldaşı Anna Akopyan tutub. Nikol anadan yetim qaldığı kimi, arvaddan da yarımayıb. Onlar son seçkilərə aylar qalmış ayrılıblar. Cütlük vətəndaş nikahında yaşasa da, onların 4 övladı var. Bu haqda az sonra...

2004-cü ilin noyabrında Paşinyanın “Niva”sı İrəvanın mərkəzində - “Haykakan Jamanak” qəzetinin redaksiyasının yanında partladılıb. Həmin vaxt maşında heç kim olmayıb. Nikol Paşinyan hadisəni sui-qəsd cəhdi kimi qiymətləndirib və biznesmen Qaqik Tsarukyanı (son seçkilərdə rəqibi - E.S.) ittiham edib.

2008-ci ilin prezident seçkisində Nikol Paşinyan ikinci yeri tutan namizəd Levon Ter-Petrosyanın qərargahında çalışıb. Seçkilərdən sonra müxalifətçilər İrəvanın mərkəzində mitinqlər təşkil ediblər. Nəticədə polislə toqquşma baş verib, ölənlər olub. Bu hadisələrdə fəal iştirak edən Paşinyan kütləvi iğtişaşların təşkilində ittiham olunaraq saxlanılıb. O, məhkəmənin çıxardığı 7 illik həbs cəzasının 2 ilini türmədə keçirib və 2011-ci ilin mayında amnistiyaya əsasən azadlığa çıxıb. Sonrası da bəllidir - siyasətə yenidən qayıtmaq və 2018-dək mübarizə.

Ailəsinə gəlincə, atası Vova elə 2018-ci ildə xərçəng xəstəliyindən ölüb. Ögey anası isə ərinin ölümündən sonra paytaxta köçməli olub. “Əgər o, hər şeyi təsəvvür etdiyi kimi etsə, biz gözəl ölkədə yaşayacağıq”, - deyə analığı Nikola inandığını vurğulayıb.

Nikolun öz ailəsinə gəlincə, Anna ilə izdivacından dörd uşaq dünyaya gəlib: oğlanları Aşot, qızları Mariam, Şuşanna və Arpine.

Paşinyanın dörd övladının heç biri Ermənistanın Apostol kilsəsində xaç suyuna salınmayıb. “İrates” nəşri yazıb.

“Biz bu faktı Anna Akopyanın qardaşı vasitəsilə dəqiqləşdirmək istədik. O, uşaqların xaç suyuna salınmadıqlarını bildirdi. Nəyə və hansı səbəblərə görə isə bilmədiyini dedi”, - erməni qəzeti yazıb. Yeni anadan olmuş uşaqlar kilsəyə aparılaraq, orada keşişin iştirakı ilə “müqəddəs xaç suyuna” çəkilirlər. Məhz bundan sonra həmin uşaq əsl xristian kimi tanınır. Paşinyanın ateist olduğu barədə çoxsaylı fikirlər səslənir.

İndi isə bu məsələlərdən çox keçib. Paşinyanın qızı Məryəm biznes fəaliyyəti ilə məşğuldur. O, 2025-ci il sentyabrın 18-də “ATLIKS” QSC-ni təsis edib. Oğlu Aşot əvvəllər pivə satışı ilə məşğul olub, daha sonra rəssamlıqla maraqlanıb.

Nikol Paşinyanın isə Kanadada gizli şəkildə malikanə aldığı iddia olunur. Kanadanın “Times of Canada” nəşri yazıb. Toronto şəhərindən təxminən 35 dəqiqəlik məsafədə yerləşən, “Sent-Corc” adlanan bu villa fransız qalası üslubunda tikilib. 2024-cü ilin sonunda 17,1 milyon dollara satıldığı bildirilən imarətin əsl alıcısının isə “saxta şirkət” vasitəsilə Paşinyan olduğu iddia edilir.

Alqı-satqı prosesində vasitəçi kimi Kanadada tanınmış erməni əsilli aktrisa və hüquq müdafiəçisi Arsinə Xandcyanın adı keçir. O, 2018-ci ildə Paşinyanı hakimiyyətə gətirən “məxməri inqilab”ın fəal dəstəkçilərindən olub və alqı-satqı sənədlərini Paşinyanın adının üzə çıxmaması üçün koordinasiya edib.

Kəsəsi, hər nə qədər demokrat kimi görünsə də, onun da, ailəsinin də nələrisə var. Sadəcə, Ermənistan və ermənilər üçün hələlik Nikoldan yaxşısı da yoxdur...

**❑ Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”ın redaktoru**



# Tanqo festivalı üçün ortaq

Zamin HACI
zaminhaci@gmail.com

**Ardıcıl olaraq yenə İçərişəhərə qayıdırıq, mövzu çıxıb, mənlik deyil. Şairin misrası ilə ifadə eləsək: "İçəri şəhər, Biçarə şəhər".**

Ancaq o, əski zamanlarda elə idi, indi İçərişəhər böyüyür, inkişaf edir, dünya arenalarına çıxır. Yaxın illərdə İçərişəhəri uzadıb Biləcəriyə birləşdirmək Bakı şəhərinin perspektiv baş planına daxildir.

Mövzu isə budur: 19-24 iyun tarixlərində İçərişəhərdə "Tanqo festivalı" keçiriləcəkdir.

Gör nə gözəl, sevindirici xəbərdir. Şəxsən mən bunu oxuyanda şortikli gənci söyən məhlə ağsaqqalını xatırlayıb səsli güldüm. Molla Nəsrəddin demişkən, buyur, filin dişisi gəlir... Hər halda, ömründə haçansa tanqo rəqsini izləmiş zəhmətkeşlərimiz nəyə işarə vurduğumu anladılar. Anlamayana da indən belə anlatmağın mənası yoxdur.

Sözgəlişi, bəlkə bu festivalı "20 Yanvar" metrosu tərəfdə keçirsələr daha məqsədəuyğun olardı, çünki tək pik saatlarda yox, sutkanın istənilən vaxtı orada zəhmətkeşlərimiz fokstrot, samba, ça-ça-ça, cayv kimi rəqslər oynayırlar. Birdən görürsən hansısa taksi sürənlə Sumqayıt sakini qolboyun olub Vyana valsı hərəkətlərini təkrarlayır. Lambada, ləzginka, milli rəqslərimizdən Nəlbəki və Tərəkəmə də metrolarımızda aktualdır. İndi tanqo festivalı olacaqsa, bunu alqışlayıram. Yaxşı rəqqasa bizdə heç kim və heç nə mane olmur.

Hərçənd başqa bir populyar məsələdə deyilən kimi, "tanqo üçün iki nəfər lazımdır" və zəhmətkeşlərimizin tanqoya münasibəti hökumətin münasibətinə nisbətdə arxaikdir, köhnəlmişdir. Hökumət deyir gəlin oynayaq, bunlar isə heç şortikə dözmürlər.

Əlbəttə, İçərişəhər bir günə tikilməmişdir, yavaş-yavaş öyrəşəcəklər. Bir də görəcəyik özləri tanqo oynayırlar - yuxarıdan tapşırıq gəlməsə belə.

Mövzu açıldı, İçərişəhərlə bağlı başqa əhvalat yadıma düşdü. Apreldə qala divarlarının bir hissəsi uçmuşdu, dedilər yağışa görədir. Ancaq çox adam bir detala fikir vermədi ki, uçan hissə hasarın Azərbaycan Dövlət İqtisad Universitetinin həyətinə açılan tərəfində idi. Məncə, bu, simvolik uçqun idi: hasar iqtisadiyyatımızın görünməmiş inkişafına dözməyərək uçmuşdur. Elə hasar iqtisadiyyatı ifadəsi bazar iqtisadiyyatı ilə qafiyəli səslənir, təklif edirəm AYB üzvləri bu istiqamətdə bir poema yazsınlar. Tanqo festivalında hiss-həyəcanın, ritmlərin təsirindən hasarlar yenə qızışıb kərpic tökə bilər, ələqədar orqanlar nəzərə alsınlar.

Hasarın filoloji analizi mənə qol-qanad vermişdir və bu biliklərimi kənd təsərrüfatına tətbiq edirəm. Hazırda bağ-bağatı cürbəcür cücülər, həşəratlar məhv etməkdədir, kəndlilər qan ağlayır, deyirlər məhsul-zad olmayacaqdır. Yağış da ki kəsmək bilmir, elə bil biz Hollandiyada yaşayırıq. Ağaclara ziyan vuran cücülərdən birinin adına diqqət edin: mənənə! Nə qədər yerində bir cücüdür... Biz hamımız, xalq, hökumət, kəndli, məmur, ziyalı və sairə elə bu prinsiplə yaşamırmı? Xalqın dərdi-səri olanda "mənə nə" demirikmi? Bu əsl bizim, milli, dədə-baba həşəratımızdır. Genə və yastıcanı, məxmər bağacığını da təhlil edərdim, yerimiz azdır. Hələlik ən sevimli böcəyimiz mənənədir.

Böcək demişkən, bu yaxında şəhəri basan qanadlı qarışqalardan bəhs etmişdim. Qonşumuz onların hücumuna davam gətirməyib evdən qaçmışdı. Pəncərənin bayırında o qədər cücü yığılmışdı ki, lap istəsən topla, kotlet bişir (bunu fantaziya kimi yazmıram, bəzi Afrika ölkələrində ağcaqanadlardan kotlet bişirirlər). Əslində bu üsulla ət, mal-heyvan, quzu problemini həll edə bilərik. Hətta uşaqlar ağzı açıq dolaşsalar havayı protein əldə edərlər, bu minvalla uşaq pulu problemi aradan qalxar.

İndi söz ələqədar təşkilatlarındır. Yazın görüm siz qarşıdan gələn tanqo festivalı üçün ortaq, tərəf-müqabil tapmısınızmı?

# Bakı Qərbi Avropada diplomatik mövqeyini gücləndirir

## Lissabonda səfirliyin açılması yeni perspektivlər yaradacaq

**Azərbaycanın xarici siyasətində yeni mərhələnin başlanğıcı sayıla biləcək mühüm addımlardan biri atılır. Milli Məclisin Beynəlxalq və Parlamentlərarası Əlaqələr Komitəsində müzakirəyə çıxarılan qanun layihəsinə əsasən, Azərbaycanın Portuqaliyanın paytaxtı Lissabon şəhərində səfirliyi təsis ediləcək. Komitə sənədi müzakirə edərək plenar iclasa tövsiyə edib.**

Yeni diplomatik nümayəndəliyin yaradılması Bakı ilə Portuqaliya arasında siyasi, iqtisadi və humanitar əlaqələrin inkişafına əlavə təkan verə bilər. İndiyədək iki ölkə arasındakı münasibətlər əsasən beynəlxalq təşkilatlar çərçivəsində və digər ölkələrdə akkreditə olunmuş diplomatik missiyalar vasitəsilə həyata keçirilirdi. Daimi səfirliyin açılması isə əlaqələrin daha sistemli və intensiv xarakter almasına imkan yaradacaq.

Ekspertlər hesab edirlər ki, Azərbaycanın son illərdə Avropa istiqamətində diplomatik iştirakını genişləndirməsi təsadüfi deyil. Xüsusilə enerji təhlükəsizliyi, nəqliyyat marşrutları və yaşıl enerji layihələri fonunda Avropa ölkələri ilə birbaşa təmasların artırılması rəsmi Bakının prioritetlərindən biridir. Portuqaliya da Avropa İttifaqının üzvü kimi bu əməkdaşlıq zəncirində mühüm həlqələrdən biri hesab olunur.

Səfirliyin fəaliyyətə başlaması iqtisadi sahədə də yeni imkanlar yarada bilər. Azərbaycan qazının Avropa bazarındakı rolunun artdığı bir dövrdə Portuqaliya ilə enerji, logistika, turizm, rəqəmsal texnologiyalar və investisiya sahələrində əməkdaşlığın genişlənməsi üçün əlavə platforma formalaşacaq.

Bununla yanaşı, səfirliyin açılması Azərbaycan diasporunun fəaliyyətinin koordinasiyasına, mədəniyyət və təhsil layihələrinin təşviqinə də müsbət təsir göstərə bilər. Diplomatik nümayəndəlik iki xalq arasında humanitar əlaqələrin möhkəmlənməsinə və qarşılıqlı tanınmanın artmasına xidmət edəcək.

Qeyd edək ki, "Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) səfirliyinin təsis edilməsi haqqında" qanun layihəsi Milli Məclisin komitəsində müzakirə olunaraq plenar iclasa tövsiyə edilib. Qanun qəbul edildikdən sonra səfirliyin yaradılması istiqamətində praktiki addımların atılması gözlənilir.

Portuqaliyada səfirlik açılması Azərbaycanın Qərbi Avropada diplomatik




mövqeyinin gücləndirilməsi istiqamətində ciddi addımlardan biri hesab edilə bilər. **Milli Məclisin deputatı Aydın Hüseynov** "Yeni Müsavat"a bildirdi ki, Portuqaliyada səfirliyin açılması Azərbaycanın Qərbi Avropadakı diplomatik iştirakının genişləndirilməsi baxımından əhəmiyyətli addım kimi qiymətləndirilə bilər. Bu qərar təkcə ikitərəfli münasibətlərin inkişafına deyil, həm də Azərbaycanın Avropa məkanında siyasi və iqtisadi maraqlarının daha effektiv şəkildə müdafiəsinə xidmət edir: "Son illərdə Azərbaycanın xarici siyasətində müşahidə olunan əsas tendensiyalardan biri Avropa ölkələri ilə birbaşa diplomatik təmasların genişləndirilməsidir. Portuqaliya kimi Avropa İttifaqının nüfuzlu üzv dövlətində daimi səfirliyin fəaliyyət göstərməsi Bakının Avropa institutları və üzv ölkələrlə əlaqələrinin daha sistemli şəkildə inkişafına imkan verəcək. Səfirliyin açılması ilk növbədə siyasi dialoqun intensivləşməsinə şərait yaradacaq. Diplomatik nümayəndəlik vasitəsilə iki ölkə arasında yüksək səviyyəli səfərlərin, hökumətlərarası məsləhətləşmələrin və parlamentlərarası əlaqələrin sayı arta bilər. Bu isə Azərbaycanın beynəlxalq məsələlərdə mövqeyinin Portuqaliya siyasi dairələrinə daha operativ çatdırılmasına kömək edəcək".

**A.Hüseynov qeyd etdi ki, Portuqaliyada səfirliyimizin açılmasının iqtisadi baxımdan da mühüm perspektivlər yaradacağı şübhəsizdir**: "Portuqaliya Avropanın Atlantik okeanına çıxışı olan mühüm logistika mərkəzlərindən biridir. Səfirliyin fəaliyyəti investisiya təşviqi, biznes əlaqələrinin qurulması, ticarət dövriyyəsinin artırılması və qarşılıqlı iqtisadi layihələrin reallaşdırılması üçün yeni imkanlar yarada bilər. Xüsusilə enerji, yaşıl enerji texnologiyaları, rəqəmsallaşma, innovasiya, nəqliyyat və turizm sahələrində əməkdaşlıq potensialı diqqət çəkir. Bununla yanaşı, Portuqaliya son illərdə bərpa olunan enerji sahəsində Avropanın qabaqcıl ölkələrindən birinə çevrilib. Azərbaycanın da yaşıl enerji strategiyasını fəal şəkildə həyata keçirdiyi bir dövrdə bu istiqamətdə təcrübə mübadiləsi və birgə layihələr üçün əlavə imkanlar yaranacaq".

**Deputat hesab edir ki, səfirliyin açılması humanitar və ictimai diplomatiya baxımından da əhəmiyyət daşıyır:** "Azərbaycan mədəniyyətinin, tarixinin və turizm potensialının Portuqaliyada daha geniş tanıdılması, universitetlər arasında əməkdaşlıq proqramlarının inkişaf etdirilməsi, eləcə də diaspor fəaliyyətinin koordinasiyası üçün institusional baza formalaşacaq.

Digər vacib məqam isə ondan ibarətdir ki, Lissabon Qərbi Avropa, Atlantik regionu və Portuqaliyanın Afrika və Latın Amerikası ilə mövcud tarixi əlaqələri baxımından xüsusi geosiyasi əhəmiyyətə malikdir. Bu səbəbdən səfirlik yalnız ikitərəfli münasibətlər üçün deyil, Azərbaycanın daha geniş beynəlxalq əlaqələr şəbəkəsinin inkişafı baxımından da əlavə diplomatik imkanlar yaradacaq. Odur ki, Portuqaliyada səfirliyin açılması sadəcə yeni diplomatik nümayəndəliyin təsis edilməsi deyil, Azərbaycanın Qərbi Avropada siyasi təsir imkanlarının genişləndirilməsi, iqtisadi tərəfdaşlıqların artırılması və Avropa məkanında mövqelərinin daha da gücləndirilməsi istiqamətində strateji əhəmiyyət daşıyan addım kimi qiymətləndirilməlidir".

Azərbaycan Respublikası xaricdə 92 diplomatik missiya ilə təmsil olunur. Bu rəqəmə 69 səfirlik, 6 daimi nümayəndəlik, 9 baş konsulluq, 7 səfirlik ofisi və 1 təmsilçilik ofisi daxildir. Lakin dünya dövlətlərinin ümumi sayı nəzərə alındıqda, Azərbaycanın 100-dən çox ölkədə birbaşa səfirliyi yoxdur. Azərbaycan dünya ölkələrindəki maraqlarını təmin etmək üçün səfirliklərlə yanaşı, həm də beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliklər, baş konsulluqlar və fəxri konsulluqlar vasitəsilə təmsil olunur.

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 22 (8871) 10 iyun 2026

# Zəngəzura alternativ “Putin yolu...”

## Ekspertlər deyir ki, rəsmi Tiflis buna razılıq verməz, verərsə...




**ABŞ Beynəlxalq İnkişaf Maliyyə Korporasiyasının (DFC) Direktorlar Şurası ötən həftəsonu “Tramp yolu” da daxil olmaqla, ticarət, nəqliyyat, iqtisadi inkişaf və regional əlaqəni dəstəkləməyi hədəfləyən yeni strateji investisiyaları təsdiqləyib. “Yeni Müsavat”ın məlumatına görə, TRIPP İnkişaf Şirkətinin yaradılması da daxil olmaqla, infrastruktur, enerji və təchizat zənciri təhlükəsizliyi üçün 2,5 milyard dollarlıq yeni strateji investisiya paketini rəsmiləşdirib.**

ABŞ-Ermənistan birgə müəssisəsi olan TRIPP İnkişaf Şirkətinin yaradılması ticarət, nəqliyyat və iqtisadi inkişafı təşviq etməklə yanaşı, beynəlxalq, dövlətlərarası və daxili nəqliyyat infrastrukturunu da təkmilləşdirəcək. ABŞ rəsmilərinin İrəvanda və Bakıda “Tramp yolu” haqqında müzakirələr apardığı bir vaxtda “Putin yolu” adlandırılan dəmir yolunun açılması məsələsi yenidən aktuallaşıb. Robert Köçəryan seçki mitinqlərinin birində Abxaziya vasitəsilə dəmir yolunun açılmasının vacibliyi haqda danışıb. O bildirib ki, bu layihə siyasi kontekstdən çıxarılmalı və ilk növbədə iqtisadi və strateji fürsət kimi qəbul edilməlidir. Köçəryan deyib ki, prezident olduğu dövrdə bu məsələni reallaşdırmağa çalışıb, ovaxtkı Gürcüstan rəhbəri Eduard Şevardnadze ilə danışıqlar aparıb, amma Saakaşvilinin hakimiyyətə gəlməsi prosesi dayandırıb.

Köçəryan deyib ki, təklifin mənası aydındır. Abxaziyadan keçən dəmir yolu Ermənistana Rusiya bazarına daha qısa yol - təxminən 700 kilometr daha qısa yol verəcək.

Yeri gəlmişkən, Rusiya baş nazirinin müavini Aleksey Overçuk da bildirib ki, Moskva Ermənistan dəmir yollarının iki hissəsinin bərpası ilə bağlı əsaslı danışıqlara başlamaq qərarına gəlib ki, bu da onların Yerasx (Arazdəyən-red.) kəndi yaxınlığındakı Azərbaycan dəmir yolları ilə, eləcə də Axuryan kəndi yaxınlığındakı Türkiyə Respublikasının dəmir yolları ilə əlaqəsini təmin edəcək. Lakin Gürcüstan bu mövzuda Rusiya ilə danışıqlar apardığını inkar edib. Rəsmi Tiflis Abxaziya vasitəsilə dəmir yolu xidmətinin bərpası ilə bağlı heç bir müzakirə aparmadığını bildirib.

Abxaziya vasitəsilə dəmir yolunun bərpası barədə Moskva ilə danışıqların aparılmamasını Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili də təsdiqləyib. Onun sözlərinə görə, həm dəmir yolu bağlantısı, həm də münasibətlərin bərpası ilə bağlı müzakirələr yalnız Gürcüstanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə mümkündür.

Xatırladaq ki, Ermənistanın dəmir yolu infrastrukturu 2008-ci ilin fevral ayında Rusiya Dəmir Yollarının törəmə şirkəti olan Cənubi Qafqaz Dəmir Yolu (CQD) ilə 30 il müddətinə, daha 10 il uzatmaq hüququ ilə güzəşt idarəetmə müqaviləsinə köçürülüb. Bu yaxınlara qədər bu, Ermənistanda irimiqyaslı tranzit layihələrinin Rusiyanın iştirakı olmadan həyata keçirilməyəcəyinə zəmanət kimi qəbul edilirdi. Lakin vəziyyət 2025-ci ilin avqust ayında Rusiyanın iştirakı olmadan həyata keçirilməsi planlaşdırılan Zəngəzurdan keçən TRIPP - Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu (“Tramp yolu”) yaradılması barədə sazişin imzalanmasından sonra dəyişdi.

Elə həmin andan etibarən Moskva Cənubi Qafqazda sülh prosesində və kommunikasiyaların açılmasında tamamilə kənarda qalmamaq üçün öz “marşrutlarını” axtarmağa başladı. Xüsusilə Aleksey Overçuk Azərbaycan və Türkiyə arasında Ermənistan vasitəsilə tranzitin təşkili ideyasını fəal şəkildə təbliğ edir. Yəni faktiki Zəngəzurdan keçən “Tramp yolu”na alternativ olaraq “Putin yolu”nu təklif edir.

Bu mövzu ilə bağlı ekspertlərimizin maraqlı təhlilləri var.

**Deputat Sahib Alıyev “Yeni Müsavat”a açıqlamasında bir sıra məqamlara diqqət çəkdi:** “Belə bir məsəl var ki, yol heç vaxt artıq olmur. Ona görə də əlbəttə, Azərbaycan Ermənistanla əvvəllər mövcud olmuş hər iki dəmir yolunun bərpasında və maneəsiz fəaliyyətində maraqlıdır. Amma unudulmamalıdır ki, bizim üçün burada digər yol məhz Zəngəzur dəhlizi varsa, var, yoxdursa, yoxdur. Yəni əslində Zəngəzur dəhlizinin açılması iki ölkə arasında sülhün olub-olmayacağı baxımından onların konstitusiyalarına gözlənilən dəyişikliyi etmələri qədər, hətta ondan da önəmlidir”. **S.Alıyev əlavə etdi ki, digər yol yenidən işləyə də bilər, işləməyə də:** “Bu, Ermənistanın öz öhdəsinə buraxılmış məsələdir. Ermənistanın öz yüklərini Abxaziyadan keçməklə, Rusiyaya daşıyıb-daşımayacağına gəldikdə, Gürcüstanda hakimiyyətdə kim olur-olsun, neçə torpaqları işğal altındadır- rəsmi Tiflisin buna razılıq verəcəyini düşünmürəm”.

**Politoloq Elxan Şahinoğlunun da məsələyə yanaşması maraqlıdır:** “Ermənistanda parlament seçkiləri arxada qaldığından və Nikol Paşinyan qələbə qazandıqdan sonra düşünürəm ki, Tramp yolunun inşası başlanacaq və bu proses sürətlənəcək. Rusiya, əlbəttə, yenə də müəyyən əngəllər yaratmağa çalışacaq, müxtəlif açıqlamalar verəcək və alternativ variantlar təklif etmək istəyəcək. Amma reallıq budur ki, Amerika Tramp yolu layihəsini dəstəkləyir, maliyyə ayrılıb və bu layihə yaxın müddətdə tikilib başa çatmalıdır. Rusiyanın təklif etdiyi Abxaziya, Gürcüstan və Ermənistan dəmir yolu layihəsi isə az qala 30 ildir müzakirə olunur. Amma bunun reallaşması mümkün deyil. Çünki Abxaziya Rusiyanın işğalı altındadır. Gürcüstan Abxaziyanın ”müstəqilliyi"ni, separatçı bölgəni tanımır. Bu halda necə ola bilər ki, Gürcüstan hökuməti Abxaziyadan dəmir yolunun çəkilməsinə razılıq versin? O zaman belə çıxacaq ki, Gürcüstan hökuməti separatçı bölgəni tanımış olur".

**E.Şahinoğlunun sözlərinə görə, əgər Rusiya Gürcüstanı parçalamamış olsaydı, Abxaziya Gürcüstanın tərkib hissəsi olaraq qalsaydı, bəli, Moskvanın istədiyi bu layihə çox rahatlıqla həyata keçirilərdi**: “Bu, hamının da xeyrinə olardı ki, Rusiya üzərindən Gürcüstanla dəmir yolu Ermənistana uzansın. Amma Rusiyanın yürütdüyü siyasət, illər boyu müxtəlif ölkələrdə separatçılara verdiyi dəstək ucbatından bu layihənin reallaşması praktik olaraq mümkün deyil. Arada bir ortaya atırlar, ola bilsin Gürcüstan hökumətinin nəbzini yoxlayırlar. Amma Gürcüstan hökumətinin Qərblə münasibətlərində müəyyən problemlər olsa da, Abxaziya variantına "hə" deməyəcək. Ona görə yeganə çıxış yolu Tramp yolunun inşasını sürətləndirməkdir. Üstəlik, Ermənistan hökumətinin Rusiyaya başqa bir müraciəti də var ki, gəlsin, Ermənistanda dəmir yollarını bərpa etsin. Çünki əvvəlki Ermənistan hakimiyyətləri nə varsa, Rusiyaya satıblar, o cümlədən dəmir yollarını... Paşinyan da Rusiyadan tələb edir ki, gəlsin, dəmir yollarını bərpa etsin, Gürcüstana, Azərbaycana, Türkiyəyə gedən xətləri yenidən qursun".

**Politoloq qeyd etdi ki, Kreml bunda maraqlı deyil:** “Rusiya fikirləşir ki, niyə Ermənistanın işini rahatlaşdırım ki, qonşu ölkələrlə dəmir yolu rabitəsi yaransın? Ona görə də Rusiya bu işə maraq olmayandan sonra Paşinyanın yaxın müddətdə hər vasitə ilə Ermənistan dəmir yollarını Rusiyanın dəmir yollarının nəzarətindən çıxarmağa çalışacağını və hansısa üçüncü ölkələrin köməyi ilə qonşu ölkələrə gedən dəmir yollarını bərpa etməyə çalışacağını düşünürəm”.

❑ **Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**

## Türkiyə-Ermənistan sərhədi açılır?

**Türkiyə-Ermənistan sərhədinin açılma tarixi qeyri-müəyyəndir.**

Bu barədə Türkiyə hökumətindən "RİA Novosti"yə (Rusiya) bildirilib.

Qeyd olunub ki, Ankara və İrəvan arasında sərhədlərin açılması üçün hələlik dəqiq bir tarix yoxdur. Prosesin növbəti mərhələsi iki ölkə arasındakı normallaşma dialoqunun gedişatından asılı olacaq.

Türkiyə XİN sözçüsü Öncü Keçeli tərəflərin hələ mayın ortalarında birbaşa ticarətə başlamaq üçün hazırlıqları tamamladığını bildirsə də, sərhədin açılması ilə bağlı qərarın ikitərəfli danışıqların dinamikasına bağlı olduğunu bildirib.

Ankara konstruktiv dialoqun davam etdirilməsinin Cənubi Qafqazda sabitliyə və qonşuluq münasibətlərinə töhfə verəcəyini vurğulayır.

Xatırladaq ki, xarici işlər naziri Ararat Mirzoyan Ermənistan və Türkiyə iş adamları arasında görüşün keçirildiyini açıqlayıb. O, növbəti görüşün Ermənistanda keçiriləcəyini deyib. “Bu, hər iki tərəfin xarici işlər nazirliklərinin və ticarət palatalarının iştirakı ilə təşkil olunub. Bu görüş əvvəlkilərdən fərqli oldu, çünki gündəm geniş idi, Türkiyənin üç əyalətinin işgüzar dairələri tərəfindən böyük maraq vardı”, - nazir bildirib.

Mirzoyanın sözlərinə görə, bu, çox yaxşı başlanğıcdır: “Yaxın gələcəkdə Ermənistanda ikinci görüşümüz olacaq. Ayrı-ayrı şirkətlərin konkret danışıqlara başladığı barədə məlumatlıyam, əminəm ki, bu söhbətin davamını görəcəyik”.

## BMT-dən Rusiyaya çağırış

**“Rusiyanın Ukraynaya müdaxiləsi strateji uğursuzluq idi. Onun neft emalı zavodları yanır... Moskva döyüş meydanında öz məqsədlərinə nail ola bilmir. Eskalasiya bunu dəyişməyəcək və yalnız fəlakətin daha da dərinləşməsi riskini artıracaq. Bu müharibə dərhal başa çatmalıdır, artıq kifayətdir”.**

Bunu BMT Təhlükəsizlik Şurasının iclasında ABŞ-nin BMT-dəki səfiri Den Neqrea deyib. İclas Rusiyanın son kütləvi raket və PUA hücumundan sonra Ukraynanın tələbi ilə keçirilib.

Amerika nümayəndəsi ayrıca bəzi ölkələri “Rusiyanın hərbi səylərini dəstəkləməyi dərhal dayandırmağa” çağırıb, çünki bu müharibənin hərbi həlli yoxdur.

Neqrea bu kontekstdə xüsusilə İranın Rusiyanı PUA-larla təmin etdiyini, eləcə də Kubanın Rusiyaya minlərlə muzdlu əsgər göndərdiyini qeyd edib: “Bu müharibə ancaq danışıqlar yolu ilə başa çata bilər. Birləşmiş Ştatlar əvvəllər olduğu kimi - və biz bunu hər iki tərəfə dəfələrlə demişik - müharibənin sona çatmasına töhfə verməyə hazırdır”.

YENİ MÜSAVAT

N 22 (8871) 10 iyun 2026

**Azərbaycanda hərbi xidmət hər bir kişi vətəndaşın konstitusion borcu hesab olunur. Son illər təhsildə yüksək nəticələr göstərən gənclərin bu sahədə müəyyən güzəştlərlə təmin edilməsi məsələsi müzakirə mövzusudur. Mütəxəssislər hesab edirlər ki, ölkənin intellektual potensialını formalaşdıran, elm və təhsildə uğur qazanan gənclərin bilik və bacarıqlarından daha səmərəli istifadə etmək üçün yeni mexanizmlərin yaradılmasına ehtiyac var. Ekspertlərə görə, ölkəmiz ərazi bütövlüyü təmin etdiyi üçün alternativ xidmət haqqında qanunun qəbulu da gündəmə gətirilməli və bu istiqamətdə müvafiq addımlar atılmalıdır. Belə mexanizmlər həm gənclərin potensialının qorunmasına, həm də ölkənin intellektual resurslarının inkişafına töhfə verə bilər. Bəs məktəbi yüksək nəticələrlə və ya fərqlənmə ilə bitirən məzunlar üçün hərbi xidmət sahəsində xüsusi güzəştlər tətbiq oluna bilərmi? Alternativ xidmət haqqında qanunun qəbulu tezdirmi?**




# Alternativ hərbi xidmət - dövlət nə itirər, nə qazanar?

## **Hərbi ekspert:** "Bu məsələyə emosiyalarla deyil, dövlət maraqları prizmasından yanaşmaq lazımdır"

**Hərbi ekspert Ramil Məmmədli** "Yeni Müsavat"a deyib ki, "Alternativ xidmət haqqında" Qanunun qəbulu məsələsinə emosiyalarla deyil, dövlət maraqları prizmasından yanaşmaq lazımdır: "Bu gün Azərbaycan 1990-cı illərin əvvəllərindəki Azərbaycan deyil. Biz qalib dövlətik, peşəkar ordu quruculuğu istiqamətində ciddi addımlar atmışıq və hərbi xidmətə baxış da tədricən dəyişməlidir. Hesab edirəm ki, məktəbi qızıl medal ilə bitirən, beynəlxalq olimpiadaların qalibi olan, elm və texnologiya sahəsində xüsusi istedad nümayiş etdirən gənclərin potensialından daha səmərəli istifadə etmək mümkündür. Bu o demək deyil ki, həmin şəxslər hərbi xidmətdən tam azad edilməlidirlər. Əksinə, onlar dövlətə xidmət etməlidirlər, sadəcə, xidmət forması fərqli ola bilər".

**Hərbi ekspert deyib ki, müasir müharibələr tam olaraq səngərdə aparılmır:** "Bu gün kibərməkanda, süni intellekt sahəsində, pilotsuz uçuş aparatlarının idarə edilməsində, elektron mübarizə sistemlərində də müharibə gedir. Azərbaycanın ən savadlı gənclərinin bir hissəsi məhz bu istiqamətlərdə dövlətə daha böyük fayda verə bilər. "Alternativ xidmət haqqında" Qanunun qəbuluna gəldikdə isə bu məsələ yeni deyil. Azərbaycan Konstitusiyasında bununla bağlı müddəa var. Sadəcə, mexanizm yaradılmayıb. Hesab edirəm ki, artıq bu mövzunun peşəkar müstəvidə müzakirəsinə ehtiyac var. Amma bu qanun elə hazırlanmalıdır ki, heç kim onu hərbi xidmətdən yayınmaq vasitəsinə çevirə bilməsin. Digər vacib məqam ondan ibarətdir ki, güzəştlər kütləvi xarakter daşımamalıdır. Əgər hər yüksək bal toplayan gəncə fərqli status verilərsə, bu zaman ordunun komplektləşdirilməsi ilə bağlı problemlər yarana bilər. Söhbət yalnız ölkə üçün strateji əhəmiyyət daşıyan sahələrdə özünü sübut etmiş gənclərdən gedə bilər. Mənim fikrimcə, ən optimal variant həmin şəxslərin qısamüddətli baza hərbi hazırlığı keçmələri, daha sonra isə müdafiə sənayesi, hərbi elmi-tədqiqat müəssisələri, kibertəhlükəsizlik və digər strateji sahələrdə xidmətlərini davam etdirmələridir. Belə olduqda nə dövlət itirər, nə də ölkənin intellektual potensialı sıradan çıxar. Bu gün Azərbaycanın əsas məqsədi say çoxluğu deyil, keyfiyyət üstünlüyüdür. Gələcəyin müharibələrində əsgərlə yanaşı alim, proqramçı, mühəndis və analitik də dövlətin müdafiə sisteminin vacib elementi olacaq".

**Hərbi ekspert deyib ki, bu sahədə beynəlxalq təcrübələr də nəzərdən keçirilə bilər:** "Məsələn, Cənubi Koreya beynəlxalq səviyyəli elm və idman nailiyyətləri əldə etmiş şəxslərə müəyyən güzəştlər təqdim edir. İsrail isə yüksək texnologiyalar və kibertəhlükəsizlik sahəsində xüsusi qabiliyyətli gəncləri ordunun elmi-texniki bölmələrinə cəlb edir. Beləliklə, həmin şəxslər həm xidmət keçir, həm də biliklərini dövlətin maraqları naminə istifadə edirlər. Azərbaycanda da alternativ yanaşma kimi yüksək bal toplayaraq ali məktəblərə daxil olan şəxslərin elmi-tədqiqat layihələrində iştirakı, müdafiə sənayesi və yüksək texnologiyalar sahəsinə yönləndirilməsi, kibertəhlükəsizlik və informasiya müharibəsi istiqamətində fəaliyyətə cəlb olunması, hərbi xidmət müddətinin müəyyən hissəsinin elmi fəaliyyətlə əvəzlənməsi, fövqəladə hallar, tibbi xidmət və sosial sahələrdə alternativ dövlət xidməti modelləri müzakirə oluna bilər. Hərbi xidmət yalnız fiziki hazırlıq deyil, həm də vətəndaş məsuliyyəti və dövlətçilik tərbiyəsi kimi qiymətləndirilir. Bu gün Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Ona görə də məsələ əvvəlki dövrlərlə müqayisədə daha rahat müzakirə oluna bilər. Bununla belə, regionda davam edən geosiyasi risklər, hərbi təhlükəsizlik məsələləri və ordunun şəxsi heyətə olan ehtiyacları nəzərə alınmalıdır. Alternativ xidmət və ya yüksək nailiyyətli gənclər üçün xüsusi xidmət modeli dövlət üçün həm qazanc, həm də risklər yarada bilər. Qazanc ondan ibarətdir ki, ölkənin intellektual kapitalı daha səmərəli istifadə olunar. Risk isə odur ki, düzgün tənzimlənmədiyi halda cəmiyyətdə bərabərsizlik və imtiyazlı qrupların formalaşması barədə narazılıqlar yarana bilər. Buna görə də məsələ yalnız hərbi deyil, həm də hüquqi, sosial və strateji aspektlərdən kompleks şəkildə qiymətləndirilməlidir".

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Azərbaycanlılar üçün ucuz Türkiyə istirahəti bitdi

## Turizm sektorunun nümayəndələri də etiraf edirlər ki, qiymət siyasəti dəyişməzsə, Antalya və Bodrum kimi kurortlar "əlçatan istirahət məkanı" imicini itirə bilər

**Türkiyənin illərdir azərbaycanlıların ən çox üz tutduğu turizm istiqamətləri sırasında yer alan Antalya, Bodrum, Marmaris və Fethiyədə qiymətlər rekord həddə yüksəlib. Son aylarda sosial şəbəkələrdə yayılan görüntülərdə məşhur çimərliklərin, restoranların və hətta bəzi hotellərin əvvəlki illərlə müqayisədə xeyli boş qalması diqqət çəkir.**



Türkiyə mediası və turizm ekspertləri bunun əsas səbəbi kimi kəskin bahalaşmanı göstərirlər. Son illərdə ölkədə yüksək inflyasiya, xidmət sektorunda xərclərin artması və turizm biznesinin qiymət siyasəti nəticəsində istirahət paketləri bir çox ailə üçün əlçatmaz səviyyəyə yüksəlib.

Bodrumda bəzi özəl çimərliklərə giriş haqqı minlərlə lirəyə çatıb. Hətta adi restoranlarda bir lahmacunun qiymətinin 300-900 lirə arasında dəyişdiyi bildirilir. Uzun illər rusiyalı və azərbaycanlı turistlərin axın etdiyi bu kurortlarda artıq əvvəlki canlanma hiss olunmur. Bahalı hotellər, yüksək restoran hesabları və əyləncə məkanlarında qiymətlərin sürətlə artması turistlərin bir hissəsini daha sərfəli istiqamətlərə yönəldib.

Məsələn, iyunun 20-dən 25-dək olan tarixlər üçün təklif edilən paketlərə nəzər saldıqda qiymətlərin kifayət qədər yüksək olduğu görünür. Antalyada 3 ulduzlu "Belpoint Beach Hotel"də istirahət 585 dollardan başlayır. 4 ulduzlu "Sunstar Beach Hotel" üçün 625 dollar, 5 ulduzlu "Ozkaymak Incekum Resort" üçün isə 815 dollar tələb olunur. Daha prestijli hotellərdə qiymətlər sürətlə artır. "Granada Luxury Okurcalar" 1075 dollar, "Kirman Belazur Resort" isə 1390 dollara təklif edilir.

Bodrumda vəziyyət daha da bahadır. Burada 3 ulduzlu "Sunpoint Family Hotel" üçün 690 dollar, "Golden Age Crystal Bodrum" üçün 755 dollar, "Kadikale Resort Hotel" üçün 860 dollar ödəmək lazımdır. "Duja Bodrum"un qiyməti 1090 dollar, "La Blanche Island Bodrum"un qiyməti isə 1385 dollara çatır.

Kuşadasında "Surtel Hotel" 715 dollar, "Marti Beach Hotel" 740 dollar, "Ramada Hotel & Suites" 825 dollar, "Liberty Kuşadası" 1195 dollar, "Sunis Efes Royal Palace" isə 1285 dollar təşkil edir.

Marmaris istiqamətində "Isla Panorama Hotel" 720 dollar, "Club Green Nature Resort 765" dollar, "Blue Bay Platinum" 830 dollar, "Labranda Mares Marmaris" 1075 dollar, "Tui Blue Grand Azur" isə 1285 dollara satılır.

Ən bahalı istiqamətlərdən biri isə Fethiyədir. Burada "Garcia Resort & Spa" 935 dollar, "Club Hotel Letoonia" 1155 dollar, "Jiva Beach Resort" 1260 dollar, "Liberty Fabay" 1690 dollar, "Liberty Signa" isə 1775 dollar səviyyəsində qiymətləndirilir.

Qiymətlərə aviabilet, 6 gün 5 gecə hoteldə yerləşmə, "hər şey daxil" qidalanma sistemi, transfer və sığorta daxildir. Qeyd olunur ki, göstərilən məbləğlər iki nəfərlik otaqda bir nəfər üçün hesablanıb.

Turizm şirkətlərinin təqdim etdiyi digər yay paketləri də ucuz sayılmır. İyun ayında Antalya üçün "Noxinn Club Hotel"də 7 gecəlik istirahət 827 dollardan, Armas Kaplan Paradise" də isə 925 dollardan başlayır. İyul ayında "Concordia Celes Hotel" 856 dollar, "Orange County Alanya" 1154 dollar təşkil edir. Avqust ayında isə "Royal Atlantis Resort" üçün 1232 dollar, "Queen's Park Göynük" üçün 1239 dollar ödəmək lazımdır.

Ekspertlər bildirirlər ki, dörd nəfərlik bir ailənin yay mövsümündə Antalyada bir həftəlik istirahəti əlavə şəxsi xərclərlə birlikdə 4-6 min dollar arasında dəyişə bilər. Bu isə Azərbaycan bazarında orta sinif avtomobillərin qiymətinə yaxın məbləğdir.

Məhz buna görə də son aylarda sosial şəbəkələrdə "Antalyada istirahət etmək artıq bir maşının puluna başa gəlir" fikirləri geniş yayılıb. Turizm bazarındakı bahalaşma fonunda bir çox turist daha sərfəli istiqamətlərə - Misirə, BƏƏ-yə, Gürcüstana və digər ölkələrə üz tutmağa başlayıb.

Turizm sektorunun nümayəndələri də etiraf edirlər ki, qiymət siyasəti dəyişməzsə, Antalya və Bodrum kimi kurortlar uzun illər daşıdığı "əlçatan istirahət məkanı" imicini itirə bilər. Buna görə də bir sıra hotellər artıq mövsümün ortasında endirim kampaniyalarına start verməyə məcbur qalıblar.

Bununla belə, Antalya hələ də azərbaycanlı turistlərin ən çox seçdiyi istiqamətlərdən biri olaraq qalır. Lakin görünən odur ki, 2026-cı ilin yay mövsümündə Aralıq dənizi sahillərində istirahət etmək istəyənlərin büdcəsi əvvəlki illərlə müqayisədə xeyli böyük olmalıdır. Hətta bəzi hallarda bu məbləğ ikinci əl avtomobil almaq üçün tələb olunan vəsaitə bərabərdir.

**❑ Şahanə RƏHİMLİ, Musavat.com**

YENİ MÜSAVAT
N 22 (8871) 10 iyun 2026

**Moskva Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının tam açılmasını dəstəkləyir. Bunu Rusiyanın xarici işlər nazirinin müavini Mixail Qaluzin Sankt-Peterburqda keçirilən beynəlxalq iqtisadi forum çərçivəsində təşkil olunmuş "3+3 Platforması: ümumi çağırışlar və strateji tərəfdaşlıq" sessiyasında bəyan edib. Onun sözlərinə görə, regionda nəqliyyat kommunikasiyalarının açılması "3+3" formatının tam fəaliyyət göstərməsi üçün zəruridir.**

# "3+3" formatını yenə "diriltmək cəhdi"

## Moskva nə üçün mövzunu gündəmdə saxlamaqda təkid edir?




"Bizim fikrimizcə, Cənubi Qafqazın tranzit potensialının inkişafında regionun bütün ölkələrinin iştirakını təmin etmək vacibdir. Ermənistanın Azərbaycan və Türkiyə ilə sərhədləri, eləcə də Gürcüstanın Abxaziya və Cənubi Osetiya ilə sərhədləri açılmadan tamhüquqlu nəqliyyat əlaqələrindən danışmaq mümkün deyil. Hesab edirik ki, bu nə qədər tez baş versə, regionun bütün iştirakçıları bir o qədər çox logistik imkanlar əldə edəcəklər", - rusiyalı diplomat bildirib.

Əvvəla, Gürcüstanın tərkib hissəsi olan və hazırda Rusiya tərəfindən işğal edilmiş regionlarla hansısa "sərhədlərdən" danışmaq olduqca qəribə görünür. Təkcə bu faktın özü qəti şəkildə belə nəticəyə gəlməyə əsas verir ki, "3+3" adlanan platforma sadəcə bir fiksiyadır. Boş bir ifadədən başqa bir şey deyil. Əgər Qaluzin diplomatdırsa, bunu anlamalıdır. Bu qənaəti təsdiqləyən başqa çoxsaylı səbəblər də var. Məsələn, Rusiya və İranın öz orta əsr təfəkkürünü xatırladan davranışları ilə özlərini saldıqları vəziyyət. Bu gün həmin təcrid olunmuş dövlətlərlə şüurlu şəkildə sıx tərəfdaşlığa can atan normal bir ölkə varmı?

Ekspertlər isə hesab edir ki, hazırda "3+1" (və ya "2+1+1") modeli fəaliyyət göstərir: iki Cənubi Qafqaz dövləti (Ermənistan və Azərbaycan), bir regional lider (Türkiyə) və bir qlobal aktor (ABŞ). Bu kontekstdə "3+3" formatı artıq öz aktuallığını itirmiş, tarixə çevrilmiş strukturdur.

Hazırkı addımlar Kremlin özünü reabilitasiya etmək və bu vəziyyətdə hansısa formada mövqeyini təsdiqləmək cəhdindən başqa bir şey deyil. Onların Ermənistana təzyiq göstərməyə hazırlaşması da bir daha təsdiq edir ki, köhnə format artıq işləmir.

Hazırda faktiki olaraq yalnız "2+1+1" modeli fəaliyyət göstərir. Bu isə birbaşa olaraq Zəngəzur dəhlizi adlandırılan layihənin həyata keçirilməsi, eləcə də Orta dəhlizin inkişafı ilə bağlıdır.

Bəs Moskva niyə inadkarlıqla "3+3" mövzusunu gündəmdə saxlayır, sanki onun arxasında reallığa bənzər nəsə dayanır? Bunun heç olmasa hansısa rasional əsası varmı?

Alyans Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov "Yeni Müsavat"a bildirdi ki, "3+3" formatının təşəbbüskarları Azərbaycan və Türkiyə prezidentləri olub. İlk iclas isə 2021-ci ilin dekabrında nazir müavinləri səviyyəsində keçirilib və indiyə qədər cəmi üç dəfə görüş olub: **"Bu platformanın yaradılması təşəbbüsündə məqsəd Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq mühitinin yaranması və inkişaf etdirilməsi olub. İran və Rusiya isə bölgənin problemlərinin bölgə dövlətləri arasında müzakirə olunmasını və kənar dövlətləri bu prosesə buraxmamağın zəruriliyini həmişə qeyd ediblər. Elə onların bu formatda iştirakının kökündə də əslinə qalsa bu durur-bölgədən kənar dövlətləri bölgə problemlərinin həllinə buraxmamaq. 2024-cü ildə Rusiya "3+3" platformasını təşkilata çevirmək istədiyini dedi. Ancaq təbiidir ki, çevirə bilmədi. Gürcüstan ilk vaxtdan bu formatda iştirak eləmir, lakin son zamanlar ekspertlər səviyyəsində bəzi müzakirələrdə gürcülər də iştirak eləyiblər. İştirak etməmələrinin səbəbi də bəllidir. Rusiya Gürcüstanın ərazisini işğal edib və geri qaytarmaq istəmir. Söhbət Cənubi Osetiyadan və Abxaziyadan gedir. Əgər Rusiyanın məqsədi həqiqətən də bölgədə təhlükəsizliyin təmin olunmasıdırsa, onda ilk addım işğal olunmuş əraziləri geri qaytarmaq olmalıdır. Baxmayaraq ki, Gürcüstan hökuməti Rusiyanın rəğbətini qazanmaq üçün hər şey elədi, hətta Qərblə münasibətlərini də korladı, ancaq məlum oldu ki, Rusiya yenə də əraziləri qaytarmaq istəmir, əksinə, Rusiya bu əraziləri artıq rəsmi şəkildə özünə birləşdirmək istəyir. Buradan aydın olur ki, Rusiyanın məqsədi bölgədə təhlükəsizlik və əməkdaşlıqdan daha çox, kənar dövlətləri Cənubi Qafqaza buraxmamaqdır".

**Ekspertin sözlərinə görə, bu gün də Rusiya əlindən gələni edir ki, ilk növbədə ABŞ-ni bölgədən uzaqlaşdırsın:** "Üstəlik, bir məsələni də demək lazımdır ki, əgər Rusiya həqiqətən də Cənubi Qafqazda əməkdaşlığın tərəfdarıdırsa, onda Ermənistana qarşı tətbiq etdiyi sanksiyalara nə ad vermək olar? Əgər əməkdaşlıq istəyirsənsə, qarşılıqlı ticarətdə niyə bu qədər problemlər yaradırsan və kənd təsərrüfatı məhsullarının Rusiya bazarına çıxarılmasına mane olursan? Rusiyanın və İranın davranışı açıq şəkildə göstərir ki, məqsəd həqiqətən də bölgəni təhlükəsiz əməkdaşlıq bölgəsinə çevirməkdən daha çox ABŞ-ni və digər dövlətləri Cənubi Qafqaza buraxmamaqdır. "3+3" platforması ilə bağlı səslənən bəyanatların da kökündə bu dayanır. O da aydındır ki, ara-sıra görüşlər keçirilsə də bu platformanın var gücü ilə işləməsi qeyri-mümkündür. Səbəb də ilk növbədə Rusiyanın və İranın yanaşmasında axtarılmalıdır. Nə qədər bəyanatlar verilsə də bu format Azərbaycan Prezidentinin və Türkiyə liderinin irəli sürdüyü formata çox təəssüf ki, indiyə qədər çevrilmədi, bundan sonra da çevrilməyəcək. Səbəb də Rusiyanın və İranın davranışıdır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

## Zelenski: "Rusiya Azərbaycanda nüfuzunu itirir"



**"Rusiya Azərbaycan, Ermənistan və Moldovada nüfuzunu itirir".**

Cebheinfo.az xəbər verir ki, bunu Ukrayna Prezidenti Volodimir Zelenski "The Guardian" qəzetinə verdiyi müsahibədə bildirib.

Ukrayna prezidentinin sözlərinə görə, Rusiya son zamanlar beynəlxalq arenada bir sıra siyasi geriləmələrlə üzləşib və tədricən müxtəlif ölkələrdə təsirini itirir. O qeyd edib ki, Moskva artıq Avropada və postsovet məkanında əvvəlki mövqeyini qoruya bilmir.

Zelenski həmçinin bildirib ki, Rusiyanın ayrı-ayrı ölkələrdə təsirini qorumaq cəhdləri uğursuzluğa düçar olur və xarici siyasəti daha da beynəlxalq təcridə səbəb olur.

Bundan əlavə, o, regiondakı bir neçə ölkədəki siyasi dəyişikliklərə istinad edərək, Moskvanın oradakı təsirinin zəiflədiyini iddia edib.

O bildirib ki, bu, Rusiyanın qlobal siyasətdəki ümumi mövqeyində əks olunur və həm ölkənin xarici, həm də daxili siyasəti üçün uzunmüddətli nəticələrə səbəb ola bilər.

## Kobaxidze Aİ-ni şantajda ittiham edib



**"Gürcü xalqının viza rejiminin ləğvi ilə təhdid edilməsi Avropa bürokratiyasının çətin vəziyyətdə olduğunu göstərir".**

APA-nın yerli bürosu xəbər verir ki, bunu Gürcüstanın baş naziri İrakli Kobaxidze brifinqdə deyib.

Onun sözlərinə görə, bu cür hədə Avropa İttifaqının şantaj cəhdidir: "Bu şantaj vasitəsi o qədər dəyərdən düşüb ki, Gürcüstan cəmiyyəti artıq ona heç bir reaksiya vermir. Son illər ərzində bu cür cəhdlər əhəmiyyətini itirib və biz müşahidə edirik ki, insanlar bunların hamısına reaksiyasız yanaşır. Əvvəllər reaksiya daha kəskin idi. Hazırda isə cəmiyyət reaksiya verməyi dayandırıb", - Kobaxidze əlavə edib. Baş nazir vurğulayıb ki, Gürcüstan cəmiyyəti ölkədə baş verən proseslər barədə kifayət qədər məlumatlıdır və şantaja uymayacaq.

Qeyd edək ki, iyunun 11-də Avropa İttifaqı və Gürcüstan arasında vizasız gediş-gəliş rejiminin mümkün dayandırılması ilə bağlı dialoq aparılacaq.

Xatırladaq ki, Gürcüstanla Aİ arasında vizasız rejim 2017-ci il martın 28-dən qüvvədədir.

## Gürcüstan 84 əcnəbini ölkədən çıxardı




**Son günlər ərzində Gürcüstandan azərbaycanlı da daxil 84 xarici ölkə vətəndaşı deportasiya edilib.**

"Report"un yerli bürosunun məlumatına görə, bu barədə Gürcüstan Daxili İşlər Nazirliyi məlumat yayıb.

Gürcüstan Daxili İşlər Nazirliyinin Miqrasiya Departamentinin əməkdaşları son günlər ərzində həyata keçirilən tədbirlər nəticəsində 84 xarici vətəndaşı ölkədən deportasiya ediblər.

Bildirilib ki, deportasiya edilən şəxslər arasında Türkiyə, Türkmənistan, Hindistan, Çin, Misir, Azərbaycan, Keniya, Rusiya, Nigeriya, İraq, Kuba, Livan, Pakistan, Cənubi Afrika Respublikası, Somali və digər ölkələrin vətəndaşları var.

Mövcud qanunvericiliyə uyğun olaraq, ölkədən çıxarılan şəxslərin Gürcüstana yenidən girişinə də məhdudiyyət tətbiq edilib.

YENİ MÜSAVAT
N 22 (8871) 10 iyun 2026

# Azərbaycan dövlət idarəçiliyində dünya üçlüyünə girdi



**Dövlət idarəçiliyi sahəsində ölkələr üzrə hökumətlərin bacarıq və səmərəliliyini qiymətləndirən nüfuzlu "Chandler Good Government Index"in (CGGI) 2026-cı il üzrə illik hesabatı dərc olunub.**

Modern.az xəbər verir ki, qlobal miqyasda 133 ölkənin dövlət idarəçiliyi sistemini 7 əsas istiqamət və 35 göstərici üzrə araşdıran hesabata əsasən, bu il ölkələrin 61%-i öz idarəetmə keyfiyyətini yüksəldib. Bununla da qlobal idarəetmə balı son 5 ilin ən yüksək səviyyəsinə çatıb. Reytinqə ardıcıl olaraq dördüncü ildir ki, Sinqapur liderlik edir.

Ümumi reytinqdə ilk 10-luqda müvafiq olaraq Sinqapur, Norveç, Danimarka, Finlandiya, İsveç, İsveçrə, Almaniya, Niderland, BƏƏ və Lüksemburq qərarlaşıb.

Hesabatda builki göstəriciləri ilə ən çox diqqət çəkən ölkələrdən biri məhz Azərbaycan olub. Ölkəmiz dövlət idarəçiliyinin effektivliyi baxımından ümumi reytinqdə 57-ci yerdə qərarlaşsa da, ayrıca "Maliyyə idarəçiliyi" istiqamətində dövlət təsisatlarının səmərəliliyi, büdcə intizamı və qəbul edilən strateji qərarların operativliyi kriteriyaları üzrə yüksək ballar toplayaraq dünyada 3-cü yerə yüksəlib.

Azərbaycanın digər 6 istiqamət üzrə göstəriciləri isə aşağıdakı kimidir:

Liderlik və uzaqgörənlik: 39-cu yer
İnsanların yüksəlişinə dəstək: 57-ci yer
Möhkəm qanunlar və siyasətlər: 67-ci yer
Cəlbedici bazar mühiti: 68-ci yer
Güclü təsisatlar: 94-cü yer
Qlobal təsir və nüfuz: 94-cü yer

Hesabatda regional ölkələrin də idarəetmə göstəriciləri əks olunub.

Türkiyə ümumi reytinqdə 75-ci yerdə qərarlaşıb. Rəqəmsal dövlət xidmətləri və cəlbedici bazar mühiti ilə regionda sabit mövqeyini qoruyan ölkə ən yaxşı nəticəni "Qlobal təsir və nüfuz" sütununda (37-ci yer), ən zəif nəticəni isə "İnsanların yüksəlişinə dəstək" kateqoriyasında (100-cü yer) göstərib.

Rusiya ümumi sıralamada Türkiyədən 3 pillə aşağıda - 78-ci yerdədir. Son illərdə yaşanan maliyyə sıxıntılarına baxmayaraq, ölkə xərclərin səmərəliliyi və büdcə intizamı sahəsində müəyyən bərpa nümayiş etdirib. Rusiya ən yaxşı nəticəsinə "Qlobal təsir və nüfuz" (54-cü yer), ən pis nəticəsinə isə "Cəlbedici bazar mühiti" (112-ci yer) sütununda imza atıb.

Gürcüstan ümumi reytinqdə region ölkələri arasında ən yüksək sırada - 43-cü yerdə qərarlaşsa da, heç bir ayrıca kateqoriyada ilk 10-luğa daxil ola bilməyib. Ölkə əsasən dövlət təsisatlarında şəffaflıq və möhkəm qanunvericilik bazası sütunları üzrə orta sıralarda yer alıb.

Ermənistan isə indeksdə 64-cü yerdə qərarlaşıb. Ölkənin ən yaxşı göstəricisi "Maliyyə idarəçiliyi" (57-ci yer), ən aşağı nəticəsi isə "Liderlik və uzaqgörənlik" (89-cu yer) sütununda qeydə alınıb.

# Aşqabad türk birliyinə və Orta dəhlizə qarşı?

## Türkmənistan strateji məsələlərdə nə "hə", nə "yox" deyir; neytrallıq siyasəti bu ölkəni strateji layihələrdən uzaq salır



**Türkiyənin vitse-prezidenti Cövdət Yılmazın 5-6 iyun tarixlərində Aşqabada səfəri çərçivəsində prezident Serdar Berdiməhəmmədovla əməkdaşlığın dərinləşdirilməsi, nəqliyyat, logistika və enerji marşrutlarının şaxələndirilməsi ilə bağlı danışıqlar aparılıb. Yılmaz birbaşa Türkmənistan qazının Türkiyəyə və oradan da Avropa və qlobal bazarlara tədarükündən bəhs edib.**

2025-ci ildən bəri Türkmənistan qazı svop sazişi vasitəsilə İran vasitəsilə Türkiyəyə tədarük olunur. Həcmlər hələ də azdır, lakin fakt özü əhəmiyyətlidir. İndi Ankara bu məntiqi genişləndirməyə və Türkmənistan resurslarını Azərbaycan və Türkiyə vasitəsilə daha böyük bir marşruta inteqrasiya etməyə çalışır.

"Nerzavisimaya qazeta" yazır ki, Aşqabad Türkmənistan qazının Transxəzər Boru Kəməri ilə ixracına isti baxmır. "Türkmənistanın hər iki lideri - Prezident Serdar Berdımuhammedov və atası, Türkmənistanın milli lideri Qurbanqulu Berdımuhammedov - Qazaxıstanın Türküstanında keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi zirvə toplantısına gəlmədilər. Türkmənistan TDT-də müşahidəçi statusuna malikdir ki, bəzi təşəbbüs və qərarlardan yayınmağa imkan verir.

İşlər o yerə çatıb ki, Türkmənistan Bakıda keçirilən Enerji Həftəsinə aşağı səviyyəli nümayəndə heyəti göndərib. Baxmayaraq ki, neft-qaz sektorundakı aparıcı investorlar və operatorlar tədbirlərdə və bu tədbirin kənarlarında iştirak ediblər.

Ekspertin qeyd etdiyi kimi, problem ondadır ki, Türkmənistan hakimiyyəti son zamanlar bu mövzu ilə bağlı bütün əsaslı müzakirələrə və danışıqlara laqeyd yanaşır.

Aşqabadın bu siyasəti nəyə hesablanıb?

**Milli Məclisin deputatı Bəhruz Məhərrəmov "Yeni Müsavat"da Türkmənistanın tam olaraq, belə mövqedə olmadığını söylədi:** "Türkmənistanın son diplomatik gedişləri və Türk Dövlətləri Təşkilatı sammitindəki iştirak səviyyəsi ilk baxışda Aşqabadın Türk birliyinə və ya Orta dəhlizə qarşı çıxması kimi görünə bilər. Lakin regionun geosiyasi reallıqlarını və Türkmənistanın 1995-ci ildən bəri yürütdüyü "Daimi Neytrallıq" statusunu nəzərə alsaq, bu addımların arxasında "əleyhinə olmaq" yox, daha çox ehtiyatlı balans və risklərin sığortalanması taktikası dayanır. Məlumdur ki, Türkmənistan xarici siyasətində hər hansı bir bloka və ya kəskin geosiyasi təşəbbüsə tam inteqrasiya olunmaqdan qaçır.

Digər tərəfdən, Rusiya Transxəzər layihəsini Xəzərin ekologiyası bəhanəsi ilə illərdir əngəlləyir, çünki Türkmənistan qazının Avropaya çıxması Moskvanın rəqabət gücünü zəiflədir. Çin isə hazırda Türkmənistan qazının ən böyük alıcısıdır. Aşqabad TDT-yə tam üzv olmaqla və ya Transxəzər kəmərinə dərhal "hə" deməklə Moskva və Pekini qıcıqlandırmaq, beləliklə də mövcud sabitliyini riskə atmaq istəmir. Həmçinin sirr deyil ki, Transxəzər Boru Kəməri nəhəng investisiya tələb edən bir layihədir. Aşqabadın mövqeyi belədir: "Biz qazı öz sərhədimizdə satmağa hazırıq, kəməri isə alıcı və ya tranzit ölkələr tiksin". Bakıdakı Enerji Həftəsinə aşağı səviyyəli nümayəndə heyətinin göndərilməsi də bir növ bu mövzuda Qərbin və tərəfdaşların konkret maliyyə öhdəlikləri götürməməsinə qarşı bir nümayişkaranə soyuqluq ola bilər və Aşqabad yalnız vədlərə görə Rusiya ilə mövcud münasibətləri gərginləşdirmək istəmir".

**Deputat dedi ki, Türkmənistanın TDT sammitlərinə liderlər səviyyəsində qatılmamasına gəlincə, bu, təşkilata qarşı olmaqdan ziyadə, qərarlarda "məcburi öhdəlik" götürməmək istəyidir:** "Müşahidəçi statusu Aşqabada imkan verir ki, iqtisadi-mədəni əməkdaşlıqdan maksimum yararlansın, lakin siyasi və hərbi çalarları olan bəyanatlara imza atmayaraq öz neytrallığını qoruyub saxlasın. Lakin onu da unutmamalıyıq ki, Türk dünyasına münasibətdə neytrallığın uzunmüddətli hədəfdə Aşqabad üçün zərəri faydasından çoxdur. Yeni Aşqabad Orta dəhlizə və ya Türk birliyinə qarşı deyil, amma eyni zamanda Türkmənistan rəhbərliyinin "yavaş tələs" strategiyasını seçməsi özünü Türk dünyasının perspektiv inkişaf strategiyasından kənar qalmasına, hətta suverenliyinin mümkün təhdidlə üzləşməsinə apara bilər. Cövdət Yılmazın səfəri də göstərir ki, Ankara hələ ki bu həssaslığı anlamağa və Türkmənistanı tam sıxışdırmadan, svop kimi daha yumşaq formatlarla layihələrə cəlb etməyə üstünlük verməyə çalışır".

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramovun sözlərinə görə, Aşqabadın son dövrlərdə nümayiş etdirdiyi davranışlar daha çox ənənəvi xarici siyasət kursu və iqtisadi maraqları ilə bağlıdır:** "Türkmənistan müstəqillik əldə etdikdən sonra özünün neytrallıq konsepsiyasını xarici siyasətinin əsas sütununa çevirib. Bu yanaşma ölkənin regional və beynəlxalq inteqrasiya layihələrində məhdud iştirakını şərtləndirir. Digər tərəfdən, Transxəzər məsələsi Türkmənistan üçün təkcə iqtisadi deyil, həm də geosiyasi risklər daşıyır. Layihənin reallaşması Türkmənistan qazının Azərbaycan və Türkiyə üzərindən Avropaya çıxışını təmin edə bilər. Bu, həm Ankara, həm Bakı, həm də Avropa İttifaqı üçün strateji əhəmiyyət daşıyır. Lakin Aşqabad uzun illər ərzində qaz ixracında əsasən Çindən asılı model formalaşdırıb. Hazırda Türkmənistan qazının böyük hissəsi Çin bazarına yönəlir və Pekin ölkənin enerji sektorunda ən böyük tərəfdaşlardan biridir. Belə şəraitdə alternativ marşrutların sürətlə inkişaf etdirilməsi Çinlə mövcud enerji balansına təsir göstərə bilər. Bundan əlavə, Rusiya amili də nəzərdən qaçırılmamalıdır. Moskva ənənəvi olaraq Xəzər hövzəsində enerji marşrutlarının formalaşmasında mühüm rol oynamağa çalışır və Avropaya alternativ qaz tədarükü layihələrinə həmişə ehtiyatla yanaşıb. Türkmənistan rəhbərliyi isə regional güclər arasında balans siyasətini qorumağa üstünlük verir. Məhz buna görə Aşqabadın kəskin geosiyasi seçimlərdən yayınmağa çalışdığı müşahidə olunur.

Bu kimi səbəblərdən Aşqabadın hazırkı siyasətini TDT və ya Orta dəhlizə qarşı çıxış kimi qiymətləndirmək, zənnimcə, düzgün olmazdı. Bu daha çox Türkmənistan rəhbərliyinin strateji ehtiyatlılıq nümayiş etdirməsi, mövcud enerji tərəfdaşları ilə münasibətləri riskə atmamaq və neytral statusunu qorumaq istəyi ilə bağlıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 22 (8871) 10 iyun 2026

# Qış bitdi, dəm qazı “qətliamı” bitmədi

## Kommunal xidmətlər üzrə ekspert: “Bunun əsas səbəblərindən biri...”

**Bakıda bir ailənin 3 üzvü mənzildə dəm qazından zəhərlənib. Hadisə iyunun 7-də paytaxtın Nəsimi rayonu, 20 Yanvar küçəsində baş verib. 1974-cü il təvəllüdlü Əbülfəz Əbiyev və oğlanları - 2005-ci il təvəllüdlü Nurlan Əbiyev və 2013-cü il təvəllüdlü Kamran Əbiyev dəm qazından zəhərləniblər. Hadisə nəticəsində Ə.Əbiyev və oğlu Kamran ölüb, Nurlan Əbiyev isə xəstəxanaya çatdırılıb.**



Cari ildə ölkə üzrə Bakı, Qusar, Qobustan və Naxçıvan bölgələrində qeydə alınan faciələrdə onlarla vətəndaşımız dəm qazından dünyasını dəyişib. Bu qurbanlar arasında müxtəlif yaş qrupları, o cümlədən azyaşlı uşaqlar və ailə üzvləri var. Bu mövzuda onlarla maarifləndirici məqalələr dərc olunub, mütəxəssislər çağırışlar edib, amma nəticəsi yoxdur. Görünür ki, daha ciddi şəkildə bir müdaxiləyə ehtiyac var.

Müqayisə üçün rəsmi qurumların açıqlamalarına əsasən, ötən illərdə ölkədə ümumilikdə 400-500 civarında zəhərlənmə hadisəsi baş verib ki, bunun da nəticəsində hər il orta hesabla 40-66 nəfər həyatını itirir. Qızdırıcı cihazların, xüsusilə hamam otaqlarındakı “titon” və ya qaz sütunlarının olduğu yerlərdə təmiz hava axını və aspirasiya (havaçıxaran) borusu mütləq işlək vəziyyətdə olmalıdır.

Bəs daha nə olmalıdır ki, bu faciələrə son qoyulsun? Burada yalnız vətəndaş günahkardır, yoxsa aidiyyəti qurumların da üzərinə məsuliyyət düşür?

Mövzu ilə bağlı **kommunal xidmətlər üzrə ekspert Nüsrət Qasımov** “Yeni Müsavat”a danışıb. Ekspert deyib ki, sovet dövründə Azərbaycan əhalisinin təxminən 90 faizi qazdan istifadə edirdi: “Maraqlıdır ki, həmin dövrdə indiki qədər dəm qazından zəhərlənmə halları qeydə alınmırdı. Bu gün isə artıq yay aylarında belə dəm qazından zəhərlənmələr baş verir. Bunun əsas səbəblərindən biri aidiyyəti qurumların lazımi səviyyədə nəzarət həyata keçirməməsi və maarifləndirmə işlərinin kifayət qədər aparılmamasıdır”.

Onun sözlərinə görə, ildə ən azı iki dəfə - mövsüm başlamazdan əvvəl və mövsüm başa çatdıqdan sonra tüstü bacaları yoxlanılmalı, təmizlənməli və texniki vəziyyəti qiymətləndirilməlidir: “Təəssüf ki, bir çox hallarda bu işlər lazımi qaydada həyata keçirilmir. Qaz cihazlarından hər hansı sızma baş verdikdə, bu ilkin mərhələdə adətən hiss olunmur. Məhz buna görə də dünyada qəbul olunmuş standartlara uyğun olaraq təbii qaza xüsusi iyverici maddə - odorant əlavə edilir. Qış aylarında hər kubmetr qaza təxminən 16 qram, yay aylarında isə 8 qram odorant qatılmalıdır. Bu maddə çürük yumurta qoxusuna bənzər kəskin iy yayır. Məqsəd odur ki, qaz sızması baş verərsə, insanlar bunu qoxudan dərhal hiss etsin və vaxtında tədbir görə bilsinlər.

Bütün bunları görmək əvəzinə bəzi şəxslər çıxıb deyirlər ki, qazdan imtina, elektrik enerjisindən istifadə etmək lazımdır, çünki elektrik daha təhlükəsizdir. Halbuki elektrik enerjisinin yaratdığı komfort qazın verdiyi rahatlıq səviyyəsində ola bilməz. Bütün yanacaq növləri arasında həm iqtisadi, həm də təhlükəsizlik baxımından ən sərfəli yanacaq məhz metan qazıdır. Digər yanacaq növləri - ağac, kömür və müxtəlif yanacaq vasitələri daha çox risk daşıyır".

**Mütəxəssis qeyd edib ki, bu məsələdə vətəndaşların özlərinin də məsuliyyəti böyükdür:** “Bəzən qaz təsərrüfatının əməkdaşları yoxlama aparmaq üçün mənzillərə gəldikdə sakinlər onları evə buraxmır, yoxlamaya icazə vermirlər. Halbuki ağıllı və məsuliyyətli vətəndaş özü ayda ən azı bir dəfə qaz idarəsinin əməkdaşını evinə dəvət edib qaz sisteminin vəziyyətini yoxlatdırmalıdır. Məlumdur ki, Xəzər dənizi hövzəsində hər gün müxtəlif gücdə xırda yeraltı təkanlar və seysmik hərəkətlər baş verir. Bu titrəyişlər nəticəsində qaz borularında mikroskopik çatlar yarana, birləşmə nöqtələrində boşalmalar əmələ gələ və qaz sızması baş verə bilər. Belə halları nəzarətsiz buraxmaq olmaz.

Bundan əlavə, fizika qanunları da öz sözünü deyir. Qış aylarında metal sıxılır, yığılır, yay aylarında isə istiliyin təsirindən genişlənir. Bu səbəbdən qaz borularında müəyyən yerdəyişmələr baş verə bilər. Nəticədə birləşmə nöqtələrində boşluqlar yaranaraq qaz sızması səbəb ola bilər. Məhz buna görə qaz təsərrüfatına mütəmadi nəzarət vacibdir. Təəssüf ki, bəzi hallarda vətəndaşların özləri də qazdan istifadə qaydalarına əməl etmirlər. Halbuki ən kiçik səhlənkarlıq belə faciə ilə nəticələnə bilər. Əgər tüstü bacası aylarla, hətta illərlə yoxlanılmırsa, təmizlənmirsə, hər an təhlükəli vəziyyət yarana bilər".

**Nüsrət Qasımov həmçinin bildirib ki, digər ciddi problemlərdən biri də tüstü bacalarının düzgün quraşdırılmamasıdır**: “Halbuki tüstü bacası qazla işləyən cihazlardan çıxan tüstünü və karbon monoksidi tam şəkildə yaşayış sahəsindən uzaqlaşdırmalıdır. Bunun üçün bacanın çıxışı dam səviyyəsindən ən azı yarım metr hündür olmalı, üst hissəsində isə xalq arasında "papaq" adlandırılan xüsusi qoruyucu qurğu quraşdırılmalıdır.

Təəssüf ki, bəzi evlərdə tüstü boruları birbaşa pəncərədən çölə çıxarılır, bəzilərində isə divar deşilərək boru sadəcə küçəyə uzadılır. Bu isə tamamilə yanlış və təhlükəli yanaşmadır. Belə hallarda tüstünün xaricə çıxma sürəti olduqca aşağı olur, saniyədə cəmi millimetrlərlə ölçülür. Halbuki Bakıda və Abşeron yarımadasında küləyin sürəti tez-tez saniyədə 40 metrə və daha artıq göstəricilərə çatır.

Nəticədə çöldən gələn güclü külək tüstünü geri istiqamətləndirərək yenidən evin daxilinə ötürür. Belə olduqda karbon monoksid yaşayış sahəsinə dolmağa başlayır. Karbon monoksid isə son dərəcə təhlükəli qazdır. Onun nə rəngi var, nə qoxusu var, nə də görünüşü. İnsan onu hiss edə bilmir.

Ən faciəli məqam da budur ki, insanlar qaz cihazını işlək vəziyyətdə qoyaraq yatdıqları zaman karbon monoksid otağa dolarsa, onlar baş verən təhlükədən xəbərsiz qalırlar. Nəticədə cəmi bir neçə dəqiqə ərzində ağır zəhərlənmə baş verir və bu, çox vaxt insan həyatının itirilməsi ilə nəticələnir. Buna görə də qazdan istifadə zamanı həm aidiyyəti qurumlar, həm də vətəndaşlar maksimum məsuliyyət nümayiş etdirməli, təhlükəsizlik qaydalarına ciddi şəkildə əməl etməlidirlər".

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# Yeni tikililərdə evlər sürətlə bahalaşır - səbəb

## Mənzil qiymətlərinin yüksəlməsinə təsir edən əsas amillərdən biri tikinti materiallarının bahalaşmasıdır

**Son illər Azərbaycanda, xüsusilə Bakı şəhərində yeni tikililərdə mənzil qiymətlərinin artması vətəndaşların ən çox müzakirə etdiyi məsələlərdən birinə çevrilib.**



Bir neçə il əvvəl əlçatan hesab edilən mənzillər artıq bir çox ailələr üçün əlçatmaz görünür. Bu binaların yerləşdiyi ərazidən asılı olaraq qiymətlər bəzən hər kvadratmetr üçün bir neçə minə yüksəlir. Bəs qiymətlərin bu qədər sürətlə yüksəlməsinin səbəbi nədir?

Cebheinfo.az-ın araşdırmasına görə, mənzil qiymətlərinin yüksəlməsinə təsir edən əsas amillərdən biri tikinti materiallarının bahalaşmasıdır.

Son illərdə sement, armatur, kabel, şüşə və digər tikinti məhsullarının qiymətində artım müşahidə olunub. Bu isə tikinti layihələrinin maya dəyərini artıraraq satış qiymətlərinə təsir göstərir. Bakının mərkəzi və əlverişli ərazilərində yeni tikinti üçün torpaq ehtiyatlarının azalması da qiymət artımına səbəb olur. Şirkətlər daha bahalı torpaq sahələri əldə etdikləri üçün bu xərc son nəticədə mənzilin qiymətində əks olunur.

Əhalinin artması, regionlardan paytaxta köç və mənzilə investisiya marağı yeni tikililərə tələbatı artırır. Tələbin yüksək olması isə bazar qanunlarına uyğun olaraq qiymətlərin yüksəlməsinə gətirib çıxarır. Xüsusilə metro stansiyalarının yaxınlığında yerləşən binalarda mənzillər satışa çıxarıldıqdan qısa müddət sonra alıcı tapır. Son illərdə daşınmaz əmlak bir çox insanlar üçün investisiya alətinə çevrilib. Vətəndaşlar vəsaitlərini bank əmanətləri əvəzinə mənzil alışına yönəldirlər. Bu isə bazarda əlavə tələb yaradır və qiymətlərin yüksəlməsini sürətləndirir.

İpoteka kreditlərinin mövcudluğu bəzi vətəndaşların mənzil almaq imkanlarını artırır. Nəticədə bazarda alıcı sayı çoxalır. Təklif eyni sürətlə artmadıqda isə bu amil də qiymətlərin yüksəlməsinə təsir göstərə bilir.

Yaxın dövrdə qiymətlərin ucuzlaşacağı gözlənilmir. Tikinti xərclərinin yüksək qalması, şəhərləşmə prosesinin davam etməsi və mənzilə olan tələbatın azalmaq əvəzinə artması qiymətlərin sabit qalmasına və ya müəyyən qədər yüksəlməsinə səbəb ola bilər.

Bununla belə, bazarda yeni layihələrin sayının artması və təklifin genişlənməsi qiymət artımının tempini zəiflədə bilər. Mənzil bazarındakı vəziyyət həm iqtisadi proseslərdən, həm də tikinti sektorunun inkişaf tempindən asılı olacaq.

Yeni MÜSAVAT
N 22 (8871) 10 iyun 2026

**Məlum olduğu kimi, Azərbaycanın dövlət büdcəsinin yanvar-may ayları üzrə gəlir-xərcləri açıqlanıb. Maliyyə Nazirliyinin yaydığı məlumata görə, 2026-cı ilin yanvar-may aylarında dövlət büdcəsinin icrası və xəzinə əməliyyatlarının idarə edilməsi sahəsində yüksək nəticələr əldə olunub. Bu dövrdə xəzinə əməliyyatlarına dair müraciətlərin qanunvericiliyin tələblərinə uyğun, sürətli və xətasız icrası təmin edilib, xəzinədarlıq orqanları tərəfindən 501 mindən çox ödəniş tapşırığı vaxtında və tam şəkildə icra edilib.**

# Büdcəmizdə üç milyardlıq profisit



## Bu ilin 5 ayında büdcə gəlirləri ötən ilin eyni dövrü ilə müqayisədə azalıb

Cari ilin yanvar-may ayları ərzində dövlət büdcəsinin gəlirləri 16 milyard 365,7 milyon manat təşkil edib ki, bu da proqnozu 265,0 milyon manat və ya 1,6 faiz üstələyib. 2026-cı ilin yanvar-may ayları ərzində icmal büdcənin gəlirləri 19 milyard 865,3 milyon manat, xərcləri isə 15 milyard 611,5 milyon manat məbləğində icra edilib.

Bildirilir ki, dövlət büdcəsinin gəlirlərində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 7 milyard 825,3 milyon manat təşkil edərək proqnozdan 130,3 milyon manat və ya 1,7 faiz, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 2 milyard 534,0 milyon manat təşkil edərək proqnozdan 10,0 milyon manat və ya 0.4 faiz, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 22,2 milyon manat təşkil edərək proqnozdan 2,6 milyon manat və ya 13.3 faiz, sair daxilolmalar 352,4 milyon manat təşkil edərək proqnozdan 227,4 milyon manat və ya 181.8 faiz çox, Dövlət Neft Fondundan transfert isə 5 milyard 350,0 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib.

Eyni zamanda dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 281,8 milyon manat təşkil edərək proqnoza qarşı 72.8 faiz icra olunub.

Yanvar-may ayları ərzində dövlət büdcəsinin xərcləri 13 milyard 852,7 milyon manat proqnoza qarşı 13 milyard 375,2 milyon manat məbləğində icra edilib ki, bu da 96,6 faiz təşkil edir. Bu, büdcədə 3 milyard manatlıq profisitin yaranması deməkdir.

Qeyd edək ki, məbləğ ifadəsində götürdükdə, bu ilin 5 ayında büdcə gəlirləri ötən ilin eyni dövrü ilə müqayisədə azalıb. Belə ki, ötən ilin yanvar-may ayları üzrə dövlət büdcəsinin gəlirləri 17 milyard 138,0 milyon manat təşkil etmişdi ki, bu da cari ildəkindən 768,3 milyon manat çoxdur.

Ötən ilin 5 ayında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti büdcəyə bu ilkindən 18 milyon manat çox - 7 milyard 843,3 milyon manat, Dövlət Gömrük Komitəsi 55,5 milyon manat çox - 2 milyard 589,5 milyon manat təmin etmişdi. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin büdcə ödənişi isə 4,2 milyon manat artıb.

Bu azalma 2026-cı ilin büdcə layihəsinin neft hasilatı və qiymətində eniş perspektivinə uyğun hazırlanması ilə bağlıdır. Belə ki, Azərbaycanın neft hasilatı sürətlə azalır. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin 4 ayında ölkədə ötən ilin eyni dövrü ilə müqayisədə 3,4 faiz az - 8,8 milyon ton neft hasil edilib. Dövlət Gömrük Komitəsi tərəfindən açıqlanan xarici statistikadan aydın olur ki, eyni dövrdə xaricə neft satışı 8 milyon tona yaxın olub ki, bu da illik ifadədə 3,42 faiz azalma deməkdir. Bu ixracdan əldə olunan gəlirlər isə 4,33 faiz azalmaqla 4 milyard 365 milyon dollar təşkil edib. Nəzərə alsaq ki, münaqişədən əvvəlki yanvar-fevral aylarında 3,6 milyon ton neft (1 milyard 704 milyon dollar dəyərində) ixrac olunmuşdu, onda mart-aprel aylarında bu göstəricinin 4,4 milyon tona bərabər olduğunu söyləyə bilərik. Bu, o deməkdir ki, ilk iki ayda 1 ton nefti 473,3 dollara (təxminən 1 bareli 64,8 dollara), mart-apreldə isə orta hesabla 604,8 dollara (təxminən 82,84 dollar) ixrac etmişik. Mayda Azərbaycan neftinin orta qiyməti 105 dollardan yuxarı olub.

ABŞ-İran münaqişəsinin tam həlli prosesinin uzanması şəraitində neft qiymətlərinin ən azı 2026-cı ilin 3-cü rübünün sonunadək 90 dollar ətrafında qalacağı gözlənilir. Bütün bunlar Azərbaycanın dövlət büdcəsinə daha çox əlavə gəlirlərin daxil olmasına imkan yaradacaq. Bu proses artıq birinci rübdən hiss olunmaqdadır. Belə ki, ixracın azalmasına baxmayaraq, qiymət artımı sayəsində ilk 3 ayda "Azəri-Çıraq-Günəşli" yatağında çalışan şirkətlərin büdcəyə ödədikləri mənfəət vergisinin məbləği ötən ilin eyni dövrü ilə müqayisədə 6,3 milyon manat artaraq 118 milyon manat təşkil edib.

Qəbul olunmuş büdcə zərfinə əsasən hökumət bu il büdcə kəsirinin 3 milyard 125,6 milyon manat olmasını proqnozlaşdırıb. Bu məbləğin 125,0 milyon manat dövlət əmlakının özəlləşdirilməsindən daxilolmalar, 2 milyard 569,6 milyon manatı daxili və xarici borclanma hesabına cəlb olunan vəsaitlər, 400,0 milyon manatı isə vahid xəzinə hesabının sərbəst qalığının vəsaitləri ilə örtüləcəkdir.

**Hesablama Palatasının büdcə sənədinə verdiyi rəydə qeyd olunur ki, 2026-cı ilin büdcə layihəsində də ötən ilin dövlət büdcəsində müşahidə olunan tendensiya davam etdirilib, büdcə kəsirinin maliyyələşdirilməsində borclanma həcminin yüksək səviyyədə olması dövlət borcuna xidmət xərclərinin artımını şərtləndirib:** "2026-cı ilin proqnozlaşdırılan dövlət büdcəsi üzrə kəsirin həcmi 3 milyard 125,6 milyon manat, dövlət borcuna xidmət xərcləri isə 2 milyard 457,6 milyon manat məbləğində müəyyən edilib. Əvvəlki illərin proqnoz göstəriciləri ilə müqayisədə 2025 və 2026-cı illərdə bu iki göstəricinin bir-birinə kəskin şəkildə yaxınlaşması diqqəti cəlb edən məqamlardandır. Bu tendensiya büdcə kəsirinin demək olar ki, böyük hissəsinin borca xidmət xərclərinin maliyyələşdirilməsinə yönələn "məcburi yük" səviyyəsinə yaxınlaşmasına səbəb olur ki, bu əlavə risklər formalaşdırır".

Xatırladaq ki, ötən ilin birinci yarısından sonra dövlət büdcəsi kəsiri 1 milyard 556 milyon manat azaldılaraq 1 milyard 495,6 milyon manat məbləğinə endirilmişdi.

**İqtisadçı Eldəniz Əmirovun "Yeni Müsavat"a dediyinə görə, büdcə gəlirlərinin proqnozdan çox icra olunması gəlir planına artıqlaması ilə əməl olunduğunu göstərir:** "Büdcə idarəçiliyində bir sıra proqnozlar tam icra olunmaya bilər. Burada ən təhlükəli məqam gəlirlərin proqnozdan aşağı olmasıdır. Birinci rübdə Azərbaycanda göstərici proqnozdan 1,6 faiz çox olub. Mənbələr üzrə gəlirlərin əksəriyyətinin proqnozdan yüksək olması büdcədə təxminən 3 milyard manatlıq profisitin formalaşmasına səbəb olub. Lakin gəlirlərin 1,6 faizlik artımı fonunda 3 milyard manatlıq profisitin olmasını heç də tam müsbət məqam kimi dəyərləndirmək mümkün deyil. Çünki adətən hökumət dövlət investisiya qoyuluşu və sair maliyyə tutumlu xərc maddələri üzrə vəsait ayrılmasına ilin ikinci yarısında başlayır. Bu baxımdan, profisitli büdcə ilin sonunadək davam edəcək deyə bir şey yoxdur".

Əmirov qeyd edir ki, dövlət qurumlarının ödənişli xitmətlərindən daxilolmaların azalması o xidmətlərdən bəhrələnənlərin sayının azalmasından xəbər verir: "Digər tərəfdən, büdcə gəlirlərinin böyük bir hissəsi Dövlət Neft Fondundan transfertin payına düşür ki, bu da büdcənin neftdən asılılığının yüksək olduğunu göstərir. Bütün bunlara baxmayaraq, açıqlanan büdcə göstəricilərini bütövlükdə qaneedici qiymətləndirmək mümkündür".

**Ötən il büdcə gəlirlərinin daha yüksək olmasına gəlincə, iqtisadçıya görə, bu, ötən il daha yüksək bazanın olması ilə bağlıdır:** "Bu il üçün müsbət məqam neft qiymətlərinin yüksək olmasıdır. Bu, riskləri böyük ölçüdə zərərsizləşdirən başlıca faktordir. Digər tərəfdən, hesab edirəm ki, büdcə gəlirləri ilə yanaşı, onların xərclənməsindəki səmərəlilik məsələsi də həlledici rol oynayır. Bu baxımdan, cari ilin büdcəsi həm xərclərin səmərəliliyi, həm də effektiv idarəetmə amillərinə görə özündən əvvəlki bütün büdcələrdən müsbət mənada kəskin fərqlənir".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Qazaxıstan və Azərbaycan maliyyə nəzarəti üzrə təcrübə mübadiləsi aparıb



**Qazaxıstan Maliyyə Bazarının Tənzimlənməsi və İnkişafı Agentliyinin sədri Mədinə Abılkasımova Azərbaycan Mərkəzi Bankı İdarə Heyətinin sədr müavini Toğrul Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC Qazaxıstan Maliyyə Bazarının Tənzimlənməsi və İnkişafı Agentliyinə istinadla xəbər verir ki, tərəflər risk əsaslı nəzarətin təkmilləşdirilməsi, nəzarət fəaliyyətinə müasir analitik alətlərin və rəqəmsal həllərin tətbiqi məsələlərini müzakirə ediblər. Onlar həmçinin maliyyə institutlarının dayanıqlığının qiymətləndirilməsi sahəsində təcrübə mübadiləsi aparıblar.

Bundan əlavə, görüş iştirakçıları istehlak kreditlərinin, o cümlədən faiz dərəcəsinin tənzimlənməsi və borc-kapital nisbətinin hesablanması üzrə təcrübə mübadiləsi aparıblar.

Səfər çərçivəsində Azərbaycan Mərkəzi Bankının nümayəndələrinin agentliyin riskəsaslı nəzarətə yanaşmalarına, Nəzarət Baxışı və Yoxlama Prosesinin (SREP) tətbiqinə, habelə çirkli pulların yuyulması, terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə ilə bağlı məsələlərə həsr olunmuş bir sıra ekspert sessiyalarında iştirakı planlaşdırılır.

Bankların daxili kapitalının və likvidlik adekvatlığının qiymətləndirilməsinə, nəzarət fəaliyyətində "SupTech" texnologiyalarından və süni intellektdən istifadəyə, risklərin idarə edilməsi modelinə xüsusi diqqət yetiriləcək.

Görüşdən sonra tərəflər maliyyə sektorunun tənzimlənməsi və nəzarətinin cari məsələləri üzrə əməkdaşlığı daha da inkişaf etdirməkdə və təcrübə mübadiləsi aparmaqda maraqlı olduqlarını təsdiqləyiblər.

# Mərkəzi Bank ilin sonunadək "Data Lakehouse" sisteminə keçəcək




**Mərkəzi Bank 2026-cı ilin sonuna qədər "Data Lakehouse" sisteminə keçəcək. Hazırda bu istiqamətdə ciddi işlər aparılır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Mərkəzi Bankın Data departamenti, məlumat mühəndisliyi şöbəsinin rəhbəri Mahir Quluzadə "Beynəlxalq Maliyyə və Bankçılıq Sammiti 2026: Türk Dövlətlərinin Qlobal Maliyyə İnteqrasiyası" mövzusunda keçirilən beynəlxalq tədbirdə çıxışı zamanı deyib.

O qeyd edib ki, hazırda bir çox süni intellekt məhsulları və korporativ həllər real iş mühitinə inteqrasiya oluna bilmir: "Buradakı əsas çağırış süni intellekt üçün tam hazır data infrastrukturunun olmamasındadır. İnanırıq ki, qarşıya qoyulan hədəflərə nail olacağıq. Bu infrastrukturun üzərində isə süni intellekt təbəqəsinin, yeni "ML-Ops" sisteminin qurulması bizim əsas prioritetlərimizdən biridir və bununla bağlı müvafiq strategiyamız artıq hazırdır".

"Data Lakehouse" sistemi müasir hibrid data idarəetmə arxitekturasıdır.

YENİ MÜSAVAT
N 22 (8871) 10 iyun 2026

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Regionların iqtisadi ixtisaslaşması: potensial niyə tam işləmir?

### Ekspert deyir ki, problemin səbəbi regionların iqtisadi potensialından tam istifadə olunmamasıdır

**Azərbaycanda regionların iqtisadiyyatdakı payı və sahələr üzrə ixtisaslaşma məsələsi yenidən gündəmə gəlib. "Yeni Müsavat" xəbər verir ki, Milli Məclisdə dövlət büdcəsinin icrası ilə bağlı müzakirələr zamanı deputat Ziyad Səmədzadə ölkədə regional inkişaf, kənd təsərrüfatı və sənaye sahələrinin vəziyyəti ilə bağlı ciddi rəqəmlər səsləndirib. Onun sözlərinə görə, hazırda ümumi daxili məhsulun cəmi 12 faizi regionların payına düşür ki, bu da ciddi disbalansı göstərir.**



Deputat həmçinin kənd təsərrüfatında ixtisaslaşmanın zəif olduğunu, bəzi ənənəvi sahələrin - xüsusilə pambıqçılıq və baramaçılığın - əvvəlki dövrlərlə müqayisədə zəiflədiyini, yüngül sənayedə isə məşğulluğun kəskin azaldığını bildirib. Eyni zamanda kənd təsərrüfatına ayrılan vəsaitlə elmi tədqiqatlara yönəldilən maliyyə arasında böyük fərq olduğunu da vurğulayıb.

Azərbaycanda kənd təsərrüfatı və sənaye sahələrində ixtisaslaşmanın zəif olmasının əsas səbəbləri nədir? Pambıqçılıq və baramaçılıq kimi ənənəvi sahələrin zəifləməsi hansı iqtisadi və idarəetmə problemləri ilə bağlıdır?

**Liberal İqtisadçılar Birliyinin sədri, aqrar sahə üzrə ekspert Akif Nəsirli mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Azərbaycanda kənd təsərrüfatı və sənaye sahələrində ixtisaslaşmanın zəif olmasının əsas səbəblərindən biri regionların iqtisadi potensialından tam istifadə olunmamasıdır. Müxtəlif dövlət proqramlarında ayrı-ayrı bölgələrin təbii-iqlim şəraiti, resursları və ənənəvi istehsal istiqamətləri nəzərə alınsa da, praktiki nəticələr gözlənilən səviyyədə olmayıb. Bir çox hallarda eyni məhsulların müxtəlif regionlarda paralel şəkildə istehsalına üstünlük verilib, bu isə rəqabət üstünlüyünün formalaşmasına mane olub. Kənd təsərrüfatında torpaq sahələrinin xırda olması, kooperasiya ənənələrinin zəif inkişaf etməsi, emal sənayesinin kifayət qədər genişlənməməsi və bazarlara çıxış imkanlarının məhdudluğu da ixtisaslaşmanın dərinləşməsinə mane olan amillər sırasındadır.

Pambıqçılıq və baramaçılıq kimi ənənəvi sahələrin zəifləməsi isə həm iqtisadi, həm də idarəetmə problemləri ilə bağlıdır. Sovet dövründə bu sahələr vahid istehsal zəncir sistemi əsasında fəaliyyət göstərirdi. Xammal istehsalından emala və satışa qədər bütün mərhələlər dövlət tərəfindən koordinasiya olunurdu. Müstəqillik dövründə həmin sistem dağıldıqdan sonra yeni bazar mexanizmlərinin tam formalaşdırılması vaxt aldı. Nəticədə fermerlər üçün rentabellik azaldı, texniki təminat zəiflədi, peşəkar kadr çatışmazlığı yarandı. Eyni zamanda dünya bazarlarında qiymət dəyişkənliyi, istehsal xərclərinin artması və emal müəssisələrinin sayının məhdud olması bu sahələrin inkişaf tempinə mənfi təsir göstərdi".

**İqtisadçı əlavə edib ki, dövlət proqramlarının icrasında yaranan problemlər daha çox icra mərhələsində özünü göstərir**: "Son illərdə qəbul edilmiş strateji sənədlərdə və dövlət proqramlarında regionların inkişafı, kənd təsərrüfatının modernləşdirilməsi və qeyri-neft sektorunun genişləndirilməsi ilə bağlı kifayət qədər əhatəli hədəflər müəyyənləşdirilib. Lakin bəzi hallarda layihələrin icrasına nəzarətin zəif olması, ayrılan vəsaitlərin səmərəliliyinin tam təmin edilməməsi, elmi tədqiqatların nəticələrinin istehsalata tətbiqində problemlər və yerli səviyyədə koordinasiya çatışmazlığı gözlənilən nəticələrin əldə olunmasını çətinləşdirir. Kənd təsərrüfatına ayrılan böyük maliyyə resursları ilə aqrar elmin maliyyələşdirilməsi arasında fərqin olması da innovativ yanaşmaların tətbiqini ləngidir və məhsuldarlığın artım potensialını məhdudlaşdırır".

**Akif Nəsirli hesab edir ki, regionların iqtisadi inkişafında daha balanslı nəticələr əldə etmək üçün hər bir bölgənin konkret sahələr üzrə ixtisaslaşmasının gücləndirilməsi, emal sənayesinin genişləndirilməsi, aqrar elmlə istehsalat arasında əlaqələrin möhkəmləndirilməsi və dövlət proqramlarının icrasına nəzarət mexanizmlərinin təkmilləşdirilməsi vacibdir:** "Bu istiqamətlərdə atılacaq addımlar həm regionların iqtisadiyyatdakı payının artmasına, həm də ənənəvi sahələrin yenidən rəqabətqabiliyyətli olmasına şərait yarada bilər".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

# Azərbaycan Avropanın enerji sabitliyinin əsas dayağına çevrilir

### Ekspert: "Azərbaycan bu sahədə Avropanın "əlavə yox, strateji tərəfdaşı"dır"



**Son illərdə Avropanın enerji təhlükəsizliyi sistemi sürətli və dərin transformasiya mərhələsinə qədəm qoyub. Xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra Avropa İttifaqı (Aİ) enerji asılılığını azaltmaq və təchizat mənbələrini şaxələndirmək istiqamətində fundamental strateji dəyişikliklər həyata keçirib.**

Əgər 2021-ci ildə Rusiya qazı Aİ-nin ümumi idxalının təxminən 45%-ni təşkil edirdisə, 2025-ci ilə doğru bu göstəricinin 12%-ə qədər enməsi Avropanın enerji xəritəsində tarixi dönüşün baş verdiyini göstərir.

Bu boşluğu əsasən Norveç və ABŞ kimi alternativ təchizatçılar doldursa da, eyni zamanda Xəzər regionunun, xüsusilə Azərbaycanın strateji əhəmiyyəti sürətlə artmaqdadır.

Bu dəyişiklik təkcə enerji mənbələrinin diversifikasiyası deyil, həm də Avropanın geosiyasi və geoiqtisadi xəritəsinin yenidən formalaşması kimi dəyərləndirilməlidir.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyi sistemində getdikcə daha mühüm və strateji mövqe qazandığını vurğulayan **iqtisadçı Əli Səlimov** Sherg.az-a bildirib ki, prosesin mərkəzində Prezident İlham Əliyevin həyata keçirdiyi balanslı, praqmatik və uzaqgörən enerji diplomatiyası dayanır: "Məhz bu siyasət nəticəsində Azərbaycan artıq təkcə enerji ixrac edən ölkə deyil, Avropanın enerji təhlükəsizliyini dəstəkləyən etibarlı və strateji tərəfdaş kimi qəbul olunur. 2025-ci il göstəricilərinə baxsaq görərik ki, Azərbaycanın ümumi qaz ixracı təxminən 25 milyard kubmetr təşkil edib və bunun 12-13 milyard kubmetri Avropa bazarına yönəlib. Bu, Azərbaycanın Aİ qaz idxalında təxminən 4% paya sahib olduğunu göstərir. Lakin bu rəqəm təkcə statistik göstərici deyil, eyni zamanda Azərbaycanın Avropa enerji sistemində sabitlik yaradan faktor kimi çıxış etdiyini təsdiqləyir. Son illərdə Azərbaycan qazının Avropaya ixracı 50%-dən çox artıb. Bu artım Cənub Qaz Dəhlizinin effektiv fəaliyyəti və Avropanın etibarlı alternativ təchizatçılara artan ehtiyacı ilə birbaşa bağlıdır. Cənub Qaz Dəhlizi çərçivəsində həyata keçirilən TAP və TANAP layihələri Azərbaycanın Avropa enerji bazarına çıxışını təmin edən əsas infrastruktur xətti kimi çıxış edir.

Hazırda Trans Adriatik Boru Kəməri (TAP) 10-11.5 milyard kubmetr ötürmə qabiliyyətinə malikdir və gələcəkdə 20 milyard kubmetrə qədər genişləndirilməsi mümkündür. TANAP isə 16 milyard kubmetr gücündədir və uzunmüddətli perspektivdə 30 milyard kubmetrə qədər artırıla bilər. Bu infrastruktur potensialı Azərbaycanın Avropanın enerji təhlükəsizliyində gələcək rolunun daha da güclənəcəyini göstərir.

2022-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında imzalanan strateji enerji anlaşmasına əsasən, 2027-ci ilə qədər qaz tədarükünün 20 milyard kubmetrə çatdırılması hədəflənib. Bu, Azərbaycanın Avropa enerji sistemində artıq "əlavə təchizatçı" deyil, "struktur tərəfdaş" kimi qəbul olunduğunu göstərir".

**İqtisadçı qeyd edib ki, Azərbaycanın ümumi qaz hasilatı 2025-ci ildə təxminən 51 milyard kubmetr səviyyəsində olub ki, bu da ölkəyə həm daxili tələbatı, həm də ixrac öhdəliklərini sabit şəkildə yerinə yetirməyə imkan verir:** "Hazırda Azərbaycan qazı 14 ölkəyə, o cümlədən 8 Avropa İttifaqı ölkəsinə ixrac olunur və yaxın illərdə Almaniya və Avstriya kimi bazarların da bu siyahıya daxil olması gözlənilir.

İtaliya Azərbaycanın Avropadakı əsas enerji tərəfdaşı olaraq qalır və ölkənin qaz tələbatının təxminən 15-16%-ni Azərbaycan təmin edir. Bu fakt Azərbaycan qazının artıq bəzi Avropa ölkələri üçün sadəcə alternativ deyil, enerji balansının mühüm struktur elementi olduğunu göstərir.

Avropanın enerji təhlükəsizliyi artıq təkcə iqtisadi məsələ deyil, eyni zamanda strateji təhlükəsizlik və xarici siyasət prioritetinə çevrilib. Enerji marşrutlarının şaxələndirilməsi, risklərin azaldılması və etibarlı tərəfdaşların cəlb edilməsi Aİ-nin enerji strategiyasının əsas istiqamətlərindən biridir. Belə şəraitdə Azərbaycan sabit siyasi mühit, uzunmüddətli enerji müqavilələri və proqnozlaşdırıla bilən enerji siyasəti ilə fərqlənən ölkə kimi çıxış edir. Eyni zamanda, Azərbaycanın enerji siyasəti yalnız qaz ixracı ilə məhdudlaşmır. Son illərdə ölkə yaşıl enerji gündəliyinə də aktiv şəkildə inteqrasiya olunur. Xəzər dənizinin külək və günəş potensialı, eləcə də Qara dəniz vasitəsilə Avropaya yaşıl enerji ötürülməsi layihələri Azərbaycanın gələcəkdə Avropanın enerji transformasiyasında da mühüm rol oynaya biləcəyini göstərir".

**Ə.Səlimov həmçinin qeyd edib ki, Azərbaycanın Avropanın enerji sistemində rolu artıq sadəcə "təchizatçı ölkə" modeli ilə izah edilə bilməz. Daha doğru yanaşma odur ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyini sabit saxlayan mühüm strateji tərəfdaş kimi çıxış edir:** "Bu isə Prezident İlham Əliyevin uğurlu, balanslı və uzaqgörən enerji diplomatiyasının nəticəsi olaraq formalaşmışdır. Son olaraq qeyd etmək istəyirəm ki, Avropanın enerji təhlükəsizliyi sistemi dəyişməkdə olsa da, bu prosesdə Azərbaycanın rolu getdikcə daha da güclənir. Rusiya asılılığının azalması, yeni enerji mənbələrinin və marşrutlarının yaranması Azərbaycannı Avropa üçün artıq sadəcə alternativ deyil, etibarlı və vacib tərəfdaşa çevirir. Gələcəkdə bu əməkdaşlığın daha da inkişaf etməsi həm Avropada enerji sabitliyini artıracaq, həm də Azərbaycanın beynəlxalq mövqeyini daha da gücləndirəcək".

YENİ MÜSAVAT
Son səhifə
N 22 (8871) 10 iyun 2026
İyun



## Yaponiyada "ağıllı ayı"ya görə məktəblər bağlandı

**Yaponiyanın Utsunomiya şəhərində artıq üç gündür küçələrdə dolaşan ayı səbəbindən yüzə yaxın təhsil müəssisəsi fəaliyyətini dayandırıb. Yerli hökumət yırtıcının ticarət mərkəzləri də daxil olmaqla, şəhərin müxtəlif yerlərində dəfələrlə görünməsindən sonra belə bir qərar qəbul edib. Tokionun şimalında yerləşən Utsunomiya administrasiyası 94 dövlət ibtidai və orta məktəbinin bağlanması barədə göstəriş verib. Buna səbəb şənbə günündən bəri ayının peyda olması ilə bağlı ondan çox müraciətin daxil olmasıdır. Hazırda heyvanın axtarışlarına onlarla ovçu, polis əməkdaşı və yerli rəsmilər cəlb olunub.**

Şəhər hakimiyyətinin nümayəndəsi bildirib ki, ayının göründüyü ərazilərdə əhalini xəbərdar etmək üçün xüsusi texnikalardan istifadə olunur. Sakinlərə evlərində və ya avtomobillərində qalmaları, zərurət olmadan küçəyə çıxmamaları barədə xəbərdarlıq edilib. Eyni zamanda, rəsmi şəxs şəhərdə bir, yoxsa bir neçə ayının dolaşdığının hələlik məlum olmadığını vurğulayıb.

Qeyd edək ki, son illər Yaponiyada ayıların şəhər mərkəzlərinə gəlməsi və insanlara hücum etməsi halları artıb. Ötən il ayı hücumları nəticəsində rekord sayda - 13 nəfər həyatını itirib. Mütəxəssislər bu hadisələrin artmasını ayıların qış yuxusundan ac halda oyanaraq qida axtarışı üçün yaşayış məntəqələrinə üz tutması ilə izah edirlər.

# Atalıq kişi beyninə necə təsir göstərir?



**Alimlər atalığın kişi beyninə müsbət təsir göstərdiyini aşkar ediblər. Bu barədə "Nyu York Tayms" məlumat yayıb. Tədqiqata görə, uşaq sahibi kişilər orta hesabla daha yaxşı idrak performansı nümayiş etdirirlər: "Onların beyinləri uşaqsız yaşıdlarına nisbətən "daha gənc"olur. Məsələn, bir araşdırmada iki uşaq atasının beyninin təxminən 0,6 yaş, üç uşaq atasının isə təxminən 0,7 yaş daha gənc göründüyü müəyyən edilib. Həftədə 2,5 saat müntəzəm məşq təxminən eyni effekti verir. Alimlər bunu uşaq böyütməyin beyin üçün əsl məşq olması ilə izah edirlər. Daimi ünsiyyət, gündəlik problemlərin həlli, məsuliyyət və empatiyanın inkişafı yaddaşı, diqqəti və digər idrak funksiyalarını aktiv işləməyə məcbur edir. Bundan əlavə, uşaqlar valideynlərin sosial aktiv qalmasına kömək edirlər. Güclü sosial əlaqələrin sağlamlığa və uzunömürlülüyə xolesterol səviyyəsindən daha böyük təsiri var".**

## Niderlandda dünyada ilk dəfə ət ferması yaradılıb



**Niderlandın Sxiplyoyden şəhərində dünyada ilk dəfə kultivasiya olunmuş (laboratoriya şəraitində yetişdirilmiş) ət istehsalı üçün nəzərdə tutulan ferma fəaliyyətə başlayıb. Müəssisədə heyvan kəsimi həyata keçirilmir. Ət heyvan toxumasından götürülmüş nümunələr əsasında xüsusi bioreaktorlarda yetişdirilir. Bunun üçün rezervuarlarda temperatur, qida maddələri və oksigen səviyyəsi daim nəzarətdə saxlanılır. Hazırda qurğu sınaq mərhələsindədir. Layihəyə Cənubi Hollandiya əyaləti tərəfindən 500 min avro vəsait ayrılıb.**

Qeyd olunur ki, Avropa İttifaqında kultivasiya olunmuş ətin satışı hələlik qadağandır. Fermerlər bildirirlər ki, bu texnologiya ənənəvi heyvandarlığı əvəz etməyəcək, yalnız alternativ fəaliyyət istiqaməti olacaq. Hazırda mütəxəssislər istehsal xərclərini və mümkün həcmləri müəyyənləşdirmək üçün sistemi sınaqdan keçirirlər. Tam gücü ilə işləyəcək ət fermasının 2028-ci ildə istifadəyə verilməsi planlaşdırılır.



## Qarında şişkinliyin bilinməyən səbəbi

**Spirtli içkilərin tez-tez qəbulu qarında şişkinliyə səbəb ola bilər. Bu barədə rusiyalı qastroenteroloq Olqa Suxareva öz "Telegram" kanalında xəbərdarlıq edib. Həkim mədə-bağırsaq traktındakı problemlərin bu qeyri-aşkar səbəbi ilə bağlı vacib məqamlara toxunub. O bildirib ki, həftədə üç dəfədən çox alkoqol qəbul etmək bağırsaqlarda bakteriyaların həddindən artıq çoxalması sindromuna (SİBO) yol aça bilər və bu vəziyyətin əsas simptomlarından biri məhz qarın nahiyəsindəki şişkinlikdir.**

Mütəxəssisin sözlərinə görə, spirtli içkilər bağırsaqdakı faydalı bakteriyaların sayını azaldır, bu da öz növbəsində şərti-patogen mikroorqanizmlərin çoxalmasına şərait yaradır. Bundan əlavə, etanol bağırsaq hərəkətliliyinə mənfi təsir göstərir. Nəticədə bakteriyalar yoğun bağırsaqdan nazik bağırsağa - yəni olmamalı olduqları yerə keçirlər.

Olqa Suxareva əlavə edib ki, alkoqol həmçinin bağırsaqların selikli qişasını qıcıqlandıraraq iltihabı artırır və yerli immun sistemini zəiflədir.

## Bunları bilirsinizmi?

* Böyrəklər hər 10-20 dəqiqədə bir bədəndəki bütün qanı süzür. Bu proses gündə 100-150 dəfə təkrar edilir. Bir gündə təxminən 500 l qan süzülür və 1,5 l sidik yaranır. Buna görə də həyatımız boyu orta hesabla 45.000 l sidik ifraz edilir.
* Dünyamızın işıq mənbəyi olan Günəşin təxminən 7 milyard il ömrü var.
* Kiçik zəlzələlər böyük zəlzələlərin baş vermə şansını azaldır.
* Motorlu vasitələr dəqiqədə 2 insanı öldürür.
* Sənayeləşmiş ölkələrdə insanlar gündəlik istifadə etdikləri ərzaq və qida məhsullarının tərkibində, təxminən 6-7 kq-a qədər həmin ərzaqların tərkibinə aid olmayan və sonradan əlavə edilmiş müxtəlif adda orqanizm üçün zərərli olan qarışıq maddələr yeyir.
* Sən dörd sətir oxuduqda dünyada 40 İnsan və 700 milyon qarışqa doğulmaqda, 30 insan və 500 milyon qarışqa ölür.
* Zəkalı insanların yuxusuzluq problemləri var.
* Hər gün dünya əhalisinin yeddidə biri, yəni 800 milyon insan ac qalır.
* İngiltərədə bir qadının orta hesabla 19 cüt ayaqqabısı var. Bunların 7 dənəsini istifadə edir.
* Qadınlar ömürlərinin 1 ilini nə geyəcəklərini düşünərək keçirirlər.

## Tez arıqlamaq üçün daha az bilinən, lakin effektiv üç üsul



**Arıqlamağa çalışan insanlar çox vaxt daha az bilinən, lakin effektiv çəki itirmə üsullarını gözardı edirlər. Oxu.Az xəbər verir ki, rusiyalı məşqçi Viktor Mandzyak öz Facebook səhifəsində effektiv arıqlamaq üçün üç faydalı üsuldan danışıb.**

**1. Kiçik boşqablarda yeyin**

Yediyimiz qidanın miqdarına dair qavrayışımız toxluq hissimizə birbaşa təsir edir. Kiçik qabda verilən porsiya böyük qabda olan eyni miqdarlı porsiyadan daha böyük görünür. Xörəklərinizi daha kiçik boşqablara çəkməklə daha tez toxluq hissi əldə edə bilərsiniz.

**2. Birinci yeməklərə (şorbalara) üstünlük verin**

Adi su toxluq hissi yaratmır, çünki mədəni tez tərk edir və insulin, leptin kimi toxluq hormonlarını stimullaşdırmaq üçün zəruri olan kaloriyə malik deyil. Lakin şorbaların tərkibindəki su fərqli təsir göstərir. Şorbalar həm daha doyurucudur, həm də onları müntəzəm qəbul edənlər adətən daha rahat çəki saxlayırlar. Vacib məqam budur ki, şorbalara mayonez və ya ağ çörək əlavə etməkdən çəkinmək lazımdır, çünki bunlar artıq kalori mənbəyidir.

**3. Daha çox lif istehlak edin**

Tərəvəzlər, meyvələr, dənli bitkilər və paxlalılar liflə zəngindir. Lif orqanizmin sağlamlığında, xüsusən də yoğun bağırsaqdakı faydalı bakteriyaların qidalanmasında mühüm rol oynayır. Arıqlamaq istəyənlər üçün lifin əhəmiyyəti ondadır ki, o, həzm prosesini yavaşladaraq kalori udulmasını azaldır və toxluq hissini uzun müddət qoruyub saxlayır.

**Səhifəni hazırladı: SELCAN**

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.